AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

# "NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA VƏTƏN MƏHƏBBƏTİ" ADLI ONLAYN RESPUBLİKA ELMİ KONFRANSININ

# MATERİALLARI




Lənkəran, 29 oktyabr 2021

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

# “NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA VƏTƏN MƏHƏBBƏTİ” ADLI ONLAYN RESPUBLİKA ELMİ KONFRANSININ

# MATERİALLARI

**Lənkəran, 29 oktyabr 2021-ci il**



# NİZAMİ GƏNCƏVİ - 880

# TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Mikayıl Məhərrəmov** | Lənkəran Dövlət Universiteti rektorunun müşaviri, professor |
| **Elvin Əliyev** | Lənkəran Dövlət Universitetinin Elm və innovasiya məsələləri üzrə prorektoru, dosent |
| **Kamran Kazımov** | Lənkəran Dövlət Universitetinin Sosial məsələlər üzrə prorektoru, dosent |
| **Ramiz Şəmmədov** | Lənkəran Dövlət Universitetinin Təbiyyat fakültəsinin dekanı, dosent |
| **Balayar Şahbazov** | Lənkəran Dövlət Universitetinin Aqrar və Mühəndislik fakültəsinin dekanı, dosent |
| **Gülbəniz Əliyeva** | Lənkəran Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent |
| **Kamal Mahmudov** | Lənkəran Dövlət Universitetinin Tarix-coğrafiya və incəsənət fakültəsinin dekanı, dosent |
| **Elşad Səfərli** | Lənkəran Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri, dosent |
| **Ayəddin Əliyev** | Lənkəran Dövlət Universitetinin İbtidai təhsil və məktəbəqədər təlim kafedrasının müdiri, dosent |
| **Afiq Əliyev** | Lənkəran Dövlət Universitetinin Pedaqogika, psixologiya və incəsənət fənləri kafedrasının müdiri, dosent |
| **Yədulla Ağazadə** | Lənkəran Dövlət Universitetinin İbtidai təhsil və məktəbəqədər təlim kafedrası, professor |
| **Vidadi Orucov** | Bakı Dövlət Sosial-İqtisad Kollecinin direktoru, pedaqogika üzrə elmlər doktoru |
| **Ruxsara Feyziyeva** | Lənkəran Dövlət Universitetinin İbtidai təhsil və məktəbəqədər təlim kafedrası, dosent |
| **Könül Dənziyeva** | Lənkəran Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrası, dosent |
| **Elman Mirzəyev** | Lənkəran Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrası, dosent |
| **Haşım Əkbərov** | Lənkəran Dövlət Universitetinin Xarici dillər və tərcümə kafedrası, baş müəllim |
| **Ülkər Babayeva** | Lənkəran Dövlət Universitetinin Elm və tədqiqat işləri şöbəsinin müdiri vəzifəsini icra edən |
| **Ülviyyə Mirzəyeva** | Lənkəran Dövlət Universitetinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdir müavini (məsul katib) |

# MÜNDƏRİCAT

## I BÖLMƏ

## NİZAMİ GƏNCƏVİ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA


1. **Abdullayeva Sevda, tarix üzrə fəlsəfə doktoru -** Nizami Gəncəvi yaradıcılığında tanrı obrazı ilk tarixi şəxsiyyət kimi ........................................ 5
2. **Aslanova Mehriban, texnika üzrə fəlsəfə doktoru -** Azərbaycan kulinariyasında zəfəran və onun Nizami Gəncəvi yaradıcılığında tərənnümü ........................................ 7
3. **Cavadova Vüsalə, doktorant -** Nizami Gəncəvinin yaradıcılığında türkçülük................. 8
4. **Cəfərov Mayis, tarix üzrə fəlsəfə doktoru -** Nizami Gəncəvinin personajları numizmatik materiallarda........................................ 9
5. **Əhmədova Türkan, doktorant -** Gəncə mühitindən yüksəliş........................................ 10
6. **Əliyev Mehman, filologiya üzrə fəlsəfə doktoru -** N.Gəncəvinin "Yeddi Gözəl" poeması çağdaş Azərbaycan Nəsri kontekstində........................................ 11
7. **Əskərov Dəyanət, müəllim -** Nizami Gəncəvinin mütərəqqi ideyaları.............................. 13
8. **Həsənov Elnur, tarix üzrə fəlsəfə doktoru -** Nizami Gəncəvi əsərlərində xalq müdrikliyi vətənpərvərlik örnəyidir........................................ 14
9. **Hüseyn Fəxrəddin, dosent -** Nizami Gəncəvi və dövrünün hökmdarları........................... 16
10. **İbadov Rakif, dosent -** Nizami Gəncəvinin fəlsəfi dünyagörüşlərinə dair.......................... 17
11. **İsmayılova Esmira, dissertant -** Nizami Gəncəvinin yaradıcılığında əməkçi insan surətləri........................................ 18
12. **Məmmədova Nərmin, doktorant -** Lənkəran ədəbi mühitində Nizami Gəncəvi ideyaları..... 20
13. **Rufullayev Qədim, dosent -** Nizami Gəncəvi və folklor........................................ 21
14. **Səfərli Elşad, dosent -** Nizami Gəncəvi Azərbaycan ədəbiyyatşünaslığında...................... 23
15. **Tahirli Abid, dosent -** Məhəmməd Əli Rəsulzadə: "Gəncəli şair, heç bir mübaliğəyə meydan verməmək üzrə ancaq və ancaq türk olmuşdur"........................................ 25


## II BÖLMƏ

## NİZAMİ GƏNCƏVİ İRSİ DİL - ÜSLUB KONTEKSTİNDƏ


16. **Ağazadə Yədulla, professor -** Nizami yaradıcılığı elm, əxlaq və qəhrəmanlıq abidəsidir... 27
17. **Dənziyeva Könül, dosent -** Nizami Gəncəvinin söz dünyası........................................ 28
18. **Əliyev Ayəddin, dosent -** Nizami yaradıcılığında Azərbaycançılıq məfkurəsi................... 30
19. **Əliyev Əlirza, dosent -** Nizami Gəncəvinin əsərlərində şəxs adları.................................. 32
20. **Feyziyeva Ruxsara, dosent -** Nizami Gəncəvi yaradıcılığında təlim-tərbiyə məsələləri..... 34
21. **İbrahimova Leyla, doktorant -** Nizami yaradıcılığının üslubi-poetik xüsusiyyətləri......... 36
22. **Məcidova Leyla, tarix üzrə fəlsəfə doktoru; Tacibzadə Aytac, magistrant -** Ümummilli lider Heydər Əliyevin Nizami Gəncəvinin mədəni irsinin təbliğ olunmasında yeri və rolu........................................ 37
23. **Mirzəyev Elman, dosent -** A.Bakıxanovun "Gülüstani-İrəm" əsəri Nizami Gəncəvi irsinin tədqiqində mənbə kimi........................................ 39
24. **Seyfullayeva İlahə, dosent -** Nizami yaradıcılığında vətənpərvərlik motivləri................... 40

# I BÖLMƏ

# NİZAMİ GƏNCƏVİ AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA

**Abdullayeva Sevda**
**tarix üzrə fəlsəfə doktoru**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**sevda.abdullayeva.1986@mail.ru**

## Nizami Gəncəvi yaradıcılığında tanrı obrazı ilk tarixi şəxsiyyət kimi

XII əsr intibah mədəniyyətinin nümayəndəsi, dünyaya günəş tək doğan Nizami Gəncəvi yaradıcılığı daim tədqiqat obyekti olmuşdur. Nizami Gəncəvi əsərləri istər ədəbi, istər mədəni, istərsə də mutikultural baxımdan bu gün də aktualdır. Nizami poemalarının giriş hissələrində geniş yer tutan Tanrıya müraciətlərdə Tanrı obrazına antropomorf keyfiyyətlər kəsb etmiş şərti tarixi şəxsiyyət kimi baxılması bəlkə də qəribə görünə bilər. Ancaq unutmaq lazım deyil ki, Tanrı insanı özünə bənzər yaratdığı kimi, insan təxəyyülü də tanrını özünə bənzər yaratmışdır. Görkəmli türkoloq Jirmunski türk qəhrəmanlıq eposunu tədqiq edərkən bahadurların və qəhrəmanların ilkin olaraq tanrısal cizgilər kəsb etdiyini, sonra isə tədricən real insani sifətlər qazandığını göstərir. Deməк, buradan belə bir nəticə çıxarmaq olar ki, mifdən eposa və sonrakı ədəbi şəkillərə keçdikcə tanrılar "insaniləşir", dağlardan, səmalardan yerə enərək qəhrəmanlara çevrilir, antropomorf cizgilər kəsb edir. Bunu - tipoloji şəkildə qədim Yunan ədəbiyyatının tarixi inkişaf prosesində də izləmək olar. Əgər Nizami yaradıcılığını postepos dövrünə aid etsək, onda onun əsərlərində tanrının daha çox insani sifətlər kəsb etməsi ilə razılaşmalı olarıq. Doğrudan da, istər Nizami, istərsə də ondan 400 il sonra yaşayıb-yaratmış böyük Füzuli yaradıcılığında Tanrı - səmimi, məhrəm, mehriban bir insan, sirdaş kimi çıxış edir ki, bu İnsan-Tanrıda dahi sənətkarlarımızın avtobioqrafik cizgilərini və onlarla çağdaş olmuş böyük şəxsiyyətlərin sifətlərini tapmaq mümkündür. Məhz bu baxımdan biz Nizami Tanrısına şərti də olsa, müəyyən mənada tarixi şəxsiyyət kimi yanaşıb, onu mistik pərdədən çıxarmağa, sxematiklikdən qoparıb canlı insan statusu verməyə çalışmışıq. İlk poeması olan "Sirlər xəzinəsi"ndə şair əsəri Allahın adı ilə başlayaraq yazır: "Bismillahir-rəhmanir-rəhim" Həkim xəzinəsinin qapısının açarıdır. (S.X., s. 16.) Daha sonra Tanrını ilk İnsan kimi təqdim edən Nizami, həm də onun ən qüdrətli fəaliyyət göstərən olduğunu nəzərə çatdıraraq yazır: Bütün gələnlərdən əvvəl var əlan odur, Əbədi qalanların hamısından əbədi olan odur. Bişmiş tədbirləri çiyləşdirəndir, Müqəssirlərin üzrünü qəbul edəndir. (S.X., s. 16.) Burada və daha sonra Nizaminin təsvir etdiyi ilahi sifətlər onun öz təxəyyülünün və yaradıcılığının məhsulu olmayıb, birbaşa müqəddəs kitabımız Qurandan gəlməkdədir. Şair ilahi sifətləri təsvir etdikdən sonra Tanrının fəaliyyət prosesinin - kainatı necə yaratmasının «xronoloji» təsvirini verir: Nə qədər ki, onun kəraməti nur pərdəsinin arxasında idi, Tikan güldən, qamış şəkərdən uzaq idi. Elə ki, onun səxavəti ilə kəramət abad oldu, Varlıq yoxluq buxovundan azad oldu. Bu iki-üç xaraba kəndin həvəsilə Fələyin işi düyün-düyün idi. O, vəhmi yandıran düyünləri açana qədər Gecənin zülfü gündüzün əlindən xilas olmamışdı. Elə ki, o, fələyin gövhərlərini sapa düzdü, Gecənin zülfünü yoxluq tozundan daraqladı. (S.X., s. 17-18.) Göründüyü kimi, Nizami Xaosu zülmət gecə şəklində təsəvvür və təsvir edir. "Gecənin zülfü gündüzün əlindən xilas olmamışdı", yəni gündüzü də gecə əvəz edirdi və kainatda zülmət gecə həm də yoxluq statusunda çıxış edirdi... Poemanın "Tövhid və minacat" hissəsində Tanrının birliyi haqqında şairin fikirləri öz bədii əksini tapır və Nizami ona kömək etmək üçün Tanrıya dua edir. Bu hissənin əvvəli bir növ mədhiyyə xarakteri daşıyır; belə ki, Nizami Tanrıya üz tutaraq onun ali sifətlərini mədh edir: Ey bütün varlığı yaradan, Zəif torpağı qüdrətli edən. Kainat sənin bayrağın altında oturmuşdur, Bizim varlığımız sənsən, səninsə varlığın öz zatındandır. Sənin varlığının nə surəti var, nə peyvəndi, Sən heç kimə bənzəmirsən və kimsə sənə bənzəyə bilməz. Dəyişmək bilməyən yalnız sənsən, Ölməz və ölə

bilməz yalnız sənsən. (S.X., s. 20.) Birinci hissədən sonra Nizami minacata başlayır, yəni Tanrıya öz xahişini və bəlkə də xahişdən daha çox özünün arzu və tələblərini ərklə çatdırır: Pərdəni at, birliyində zahir ol, Əgər o pərdə mənəmsə, onu qatla. Fələyin acizliyini fələyə göstər, Cahanın düyününü cahandan aç. Zəmanənin bu ayəsini poz, Bütün göy cisimlərinin surətini sil. (S.X., s. 21.) Maraqlıdır ki, bu hissənin quruluşu müqəddəs kitabımız Quranın başlanğıc surəsi olan "Fatihə" surəsini çox xatırladır. Burada da birinci hissədə Tanrının sifətləri verilir, sonra isə ondan xahiş edilir: "Rəhman və rəhim olan Allahın adıyla. 1 - Aləmlərin Rəbbi Allaha həmd olsun. 2-0, Rəhmandır, Rəhimdir. 3 - Din gününün sahibidir. 4 - Ancaq Sənə qulluq edər, ancaq Səndən yardım istəriz! 5 - Bizi doğru yola yönəlt." Bu isə şairin öz yaradıcılığında Qurana sıx-sıx müraciətini və xüsusən Tanrı obrazının təqdimində ondan ən mötəbər qaynaq kimi istifadə etdiyini göstərməkdədir. Poemada Tanrı həmişə mistik pərdəyə bürünmüş şəkildə təqdim edilmir; bir çox müasirlərindən fərqli olaraq, Nizami insan şüurunun və biliyinin Tanrını dərk etməyə qadir olduğunu bildirir. "Sirlər xəzinəsi"ndəki bu xüsusiyyəti ilk dəfə Azərbaycan filosofu Z.Quluzadə sezmiş və təqdim etmişdir. Alim yazır: "Allah öz yaratdığı zəif məxluqdan - insandan heç də uzaq deyil. O, sözün və şüurun əzəməti ilə insanla bağlıdır. Məhz sözün və şüurun köməyi ilə insan aləmlər üzərinə yüksələcək, təkcə kainatın deyil, öz xaliqinin də sirlərini anlamağa cəhd göstərəcək. (Bu fikir antiortodoksal, küfrdür)." Lakin onu da qeyd edək ki, bütün bunlar poemada sistemli xarakter daşımır. Məsələn, əsərin girişində şair Tanrının dərkolunmazlığı fikrini irəli sürür və sanki öz Xaliqindən üzr istəyir: Sənin sifətini dərk etmək qarşısında acizik, "Allahı kim tanıdı?.." hədisini dəfələrlə oxumuşuq. (S.X., s. 24.) Əlbəttə, aydındır ki, burada ifratdan təfritə və əksinə varmaq fayda verməz.

Tanrının antropomorf sifətlərlə müzəyyən olmasının təbii şərtlərindən biri də onun bütün qüdrət və qüvvətinin insanlara xidmət etməyə yönəlməsində özünü göstərir. Bütün canlı və cansız təbiətin yaradılmasından məqsəd - insanlara xidmət etməkdir; deməli, belə bir Tanrı insana çox yaxın olmalı, ona doğma və munis olmalı, insanı da öz gözəl sifətləri örnəyində yaratmalıdır. Qurani-Kərimdə də Allahın bütün nemətləri məhz insanlar üçün yaratdığı dönə-dönə təsdiq edilir. Nizami-Tanrı ünsiyyətində maraqlı cəhətlərdən biri də - təkcə şairin Tanrıya deyil, eyni zamanda Tanrının da Nizamiyə müraciət etməsidir ki, bu da ondakı antropomorf cizgiləri xeyli gücləndirmiş olur. Bu müraciətlər adətən "Ey Nizami!" nidası ilə başlayır. Məsələn, "Xosrov və Şirin"də hikmətin sirlərinə heyran olan və müxtəlif suallar qarşısında cavabsız qalaraq psixoloji sarsıntı keçirən, məchulluq qarşısında özünə yer tapmayan Nizamini sakitləşdirmək, onun ruhi müvazinətini bərpa etmək üçün Tanrı tərəfindən belə bir müraciət gəlir: "Bu bütlərin fitnəsinə uyma, Çünki bu bütlər özlərinə pərəstiş etmirlər. Hamısı pərgar kimi sərgərdandır. Özlərini yaradanı axtarırlar. Sən də axı əlini yuxarı qaldırıb Nə üçün bütxanənin qapısını bağlamırsan? İbrahim kimi bütlə eşqbazlıq et, Ancaq bütxanəni bütdən təmizlə. Bütə nəzər salsan, surətpərəst olarsan." (X.Ş., s. 27.) "Yeddi gözəl"də memar Simnarı tikdiyi qəsrin damından yerə atan Nemanı cəzalandıran da məhz Tanrıdır. Burada o, vicdan ipostasında çıxış edir. Tanrı kimi vicdan da insanın əməlləri üzərində gizli, gözəgörünməz nəzarətçi, onu düz yola yönəldən, yaxşı əməllərə vadar edən, onun sözündən çıxdıqda isə ciddi cəzalandıran bir antropomorf qüvvə, gecəgündüz insanın yol yoldaşı olan və onu məzara qədər müşayiət edən tarixi şəxsiyyətdir. Bu baxımdan demək olar ki, Tanrının bir adı da Vicdandır. Nizami poemalarında Tanrı obrazı ilə bağlı bir cəhəti də nəzərə çatdırmaq lazımdır ki, "Xəmsə"- dəki hökmdar obrazlarının əksəriyyəti islamdan əvvəl fəaliyyət göstərsələr də, onlar Tannpərəstlikdə bir müsəlman kimi çıxış edir, islami prinsiplərə əməl edirlər. Bu isə Nizami əsərlərindəki müasirlik keyfiyyətləri ilə bağlıdır və bu baxımdan şairin poemalarındakı Tanrı obrazı da onun müasiri olan tarixi şəxsiyyətdən - ideal insandan başqa bir şey deyildir. Müəyyən mənada isə, yuxarıda artıq qeyd etdiyimiz kimi, antropomorf cizgilər kəsb etmiş Tanrı obrazında avtobioqrafik cizgilər də özünü büruzə verir və bu obrazın köməyilə biz bir ideal insan kimi Nizaminin sənətkar psixologiyasına nüfuz edir, onu daha yaxından tanıya bilirik. Deməli, Nizami poemalarında öz əksini tapmış Tanrı obrazı - şairin müasirlərinin və özünün ən yaxşı insani sifətlərinin məcmusundan ibarət olan mücərrəd tarixi şəxsiyyət, ümumiləşmiş bir bədii-fəlsəfi obyektdir.

**Aslanova Mehriban**
**texnika üzrə fəlsəfə doktoru**
**Azərbaycan Texnologiya Universiteti**
**aslanovamehriban@gmail.com**

## Azərbaycan kulinariyasında zəfəran və onun Nizami Gəncəvi yaradıcılığında tərənnümü

Azərbaycan florasının nadir incilərindən olan zəfəran Zanbaqçiçəklilər fəslindən çoxillik soğanaqlı bitkidir. Onun dünyada 80, Azərbaycanda isə 6 növü məlumdur. Vətəni Kiçik Asiya olan zəfəran Azərbaycana hələ VIII əsrdən gətirilmiş, artıq IX əsrdə ölkəmizdən xarici dövlətlərə ixrac olunması barədə elmi mənbələrdə məlumatlara rast gəlinir. Tərkibində 0,8% efir yağı, 3,1% rəngləyici maddə, 25,4% şəkərlər və Ca, K, P, Fe, Mg, Na, Si, Al və s. elementlər olan zəfərandan qədimdən dərman, boya maddəsi və ədviyyat kimi istifadə olunur. Azərbaycanda ondan daha çox aş, şəkərbura, paxlava və s. bişirilməsi zamanı istifadə edilir. Zəfəran sözünün ərəb dilində mənası "sarı" deməkdir. Qədim Azərbaycanda yemək, şirniyyat və içkilərin tərkib hissələrindən biri və ən mühümü olan zəfəran qiymətli ədviyyatlardandır. Zəfəran güclü özünəməxsus ətir və acıtəhər dada malik olub, telləri qənnadı məmulatların dadlaşdırılmasında, habelə pendir, kolbasa və likörlərin istehsalında istifadə edilir. Əvvəllər zəfəran ədviyyat kimi az miqdarda istifadə olunduğu halda Yaxın Şərqdə, Orta Asiyada və Cənubi Avropada düyü (aş, bozbaş, paelya), ət və noxud (piti) yeməklərinin hazırlanmasında vacib yer tuturdu. Son zamanlar aparılan elmi araşdırmaların və ekoloji təmiz qida məhsullarına olan tələbatın, eyni zamanda zəfəranın faydalarının geniş təbliği sayəsində zəfəran mətbəximizdə bir çox milli xörəklərimizdə istifadə olunur. Zəfəranı quzu, qoyun, balıq və gül kələmindən hazırlanmış şəffaf şorbalara ədviyyat kimi əlavə edirlər. Zəfəran ədviyyat olması ilə yanaşı, həm də konservləşdirici təsirə malikdir. Zəfəranla hazırlanmış xörəkləri bir neçə gün xarab olmadan saxlamaq mümkündür. Azərbaycan mətbəxinin ən məşhur yeməklərindən olan Küftə-bozbaş, Piti, Dolma, Plov, Fisincan plovu, şirniyyatlardan halva, paxlava və s. zəfəran əlavə edilməklə hazırlanır və sırf zəfəranla hazırlandığı üçün daha ətirli olur. Otaylı, butaylı Azərbaycanın ən məşhur yeməklərindən olan Küfteyi Arzuman (Arzuman küftəsi), Təbriz Küftəsi, Sadə küftə, Küftə kabab, Kəbabi keşniş (keşniş kəbabı) Şami kəbab (şamı kəbabı) kimi milli xörəklərdə zəfərandan geniş istifadə olunur. Zəfəranı ən çox ətin suyuna qatarlar ki, sarı rəngə boyansın və xörəyin ətri xoş olsun. Azərbaycanda hələ XII əsrdən zəfəranlı plov, halva bişirildiyi məlumdur. Ümumiyyətlə dünyanın ən keyfiyyətli zəfəranı qədimdən bəri Abşeronda yetişdirilir.

Dahi Azərbaycan şairi Şeyx Nizaminin "Xəmsə"sində Azərbaycanda yetişdirilən qiymətli bitkilər haqqında geniş məlumat vermişdir. Şair heç bir əsərində bu bitkilərin sadəcə adını çəkməklə kifayətlənməmişdir, eyni zamanda onların səciyyəvi xüsusiyyətlərini, faydalı əlamətlərini cəmi bir-iki misrada dərin müşahidəçilik qabiliyyətinə malik olan təbiətşünas alim, məharətli rəssam kimi təsvir etmişdir. Şeyx Nizami Zəfəran haqqında "Zəfəran insanı gümrahlaşdırır, mədəni möhkəmləndirir, dalaq, qaraciyər xəstəliklərində, bel ağrılarında, soyuqdəymədə xeyirlidir. O, üzün rəngini yaxşılaşdırır, üzə şəfəq verir, yuxu gətirir, sidikqovucu təsir göstərir" məlumatını verir. Dahi şair zəfəranın faydalarını dərindən bildiyi üçün "Xəmsə"də tez-tez zəfəranın adını çəkir, onun səciyyəvi xüsusiyyətlərini, müalicəvi əhəmiyyətini obrazlı ifadələrlə qeyd edir. Məsələn, "İsgəndərnamə" poemasında şair zəfəranı sarı rənginə və insanda şən əhval-ruhiyyə yaratmasına görə qızılla müqayisə edərək yazır:

Qızıl bir meyvədir, zəfəran saçar,
Zəfəran kimi də könlünü açar.

"Yeddi gözəl" poemasında isə şair yetişdirilən zəfəranla şənbəlidi (yabanı zəfəran) müqayisə edir, onların fərqini ikicə misrada poetik dillə aydınlaşdırır:

Şənbəlid gözündən yaşlar töküldü,
Zərəfan yeyərək təzədən güldü.

Ümumiyyətlə, şairin müxtəlif bitkilər haqqındakı fikirlərini araşdıraraq, belə qənaətə gəlirik ki, o, həmin bitkilər barəsində bilikləri dərindən mənimsəməklə kifayətlənməmiş, eyni zamanda bir alim kimi onlar üzərində məqsədyönlü müşahidələr aparmış, səciyyəvi əlamətlərini göstərmişdir. Bu baxımdandır ki, şair müxtəlif bitkiləri təsvir edərkən onların hamıya məlum olan əlamətlərindən daha çox, əksəriyyətin bilmədiyi xarakterik və fərqləndirici xüsusiyyətlərinə diqqəti yönəldir.

**Cavadova Vüsalə**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**vusala_h@mail.ru**

## Nizami Gəncəvinin yaradıcılığında türkçülük

Azərbaycan klassik ədəbiyyatının ən uca zirvəsi, ustad Nizami əsərlərində oxucusuna türk ruhunu aşılamış, klassik divan ədəbiyyatına türk mövzu və surətlərini gətirmiş, ənənəvi sujetləri türklərlə əlaqələndirmiş, öz Vətəninə sevgi və bağlılığını hər məqamda bildirmişdir. Nizami Gəncəvi ana vətəni ilə bağlı məqamları elə sevgi ilə, elə dərin rəğbətlə qələmə almışdır ki, bu məqamları təsvir edən dilin fars dili olduğu belə unudulmuşdur.

Nizami Gəncəvinin əsərlərində, ümumiyyətlə, türk sözü, türk adı böyük rəğbətlə xatırlanır. Nizami igidlik, qoçaqlıq, qəhrəmanlıq səhnələrini təsvir etdiyi məqamlarda türk adından epitet kimi istifadə edir, gözəllik, etibarlılıq, düzlük, sədaqətlilik anlayışlarını bu adla bağlayır. Obrazların dünyagörüşünü təsvir etdiyi məqamda yenə də türk adına üstünlük verir.

Türklərdən çox ikən qoşunu rumun
Hindi qılıncıyla etdi sərnigun.
(“Xosrov və Şirin, 2004, 39)

Türk ki, yağma elədi, kim dayanar önündə
Evini hindli qula ismarlar hansı bəndə?
(“Sirlər xəzinəsi”, 2004, 162)

Nizaminin təsvir etdiyi hadisələr fonunda işlətdiyi türk adı ilə ya başqa xalqlara məxsus yaxşılıqlar təsvir olunur, ya da Nizami obrazları özlərinin yaxşı tərəflərini canlandırmaq üçün fəxrlə türklər məxsus olduqlarına diqqəti cəlb edirlər.

“Yeddi gözəl” əsərində kürd qızı haqqında bəhs edərkən onun cəlbediciliyi türk qızlarındakı işvəkarlığa bənzədilir:

Onun türk baxışlı, xoş hindu xallı
Bir qızı vardı ki, xeyli kamallı

“Qarı ilə Sultan Səncərin” hekayətində Nizami türk hökmdarını ədalətli və vicdanlı olmağa çağırır. Nizamiyə görə, türk hökmdarları heç bir zaman zalım və ədalətsiz olmamışlar, Sultan Səncərin buna uyğun olmayan davranışı isə türk adına şərəf gətirmir. Ona görə də, Nizami bir qarının dilindən Sultan Səncəri ədalətsiz işlərinə görə belə ittiham edir:

Dağ kimi ucalmışdı bir zaman Türk dövləti,
Sarmışdı məmləkəti ədaləti, şəfqəti.
Sən yıxdın o şöhrəti, batıb getdi o ad-san,
Deməк, sən türk deyilsən, yağmaçı bir hindusan.

"Xosrov və Şirin" poemasında isə N.Gəncəvi açıq şəkildə yazır ki, türklərin kökü bu millətin ulu əcdadı Alp Ər Tonqa, divani etiqadı isə Günəşə sitayişlə bağlıdır:

Əgəp o aydırsa, biz aftiabıq,
O Key-xosrovdursa, bizsə Əfrasiyabıq.

Göründüyü kimi, N.Gəncəvinin əsərlərində "türk" amili xüsusilə önə çəkilmiş və Azərbaycan türklərin qədim vətəni kimi açıq şəkildə qeyd edilmişdir. "Xosrov və Şirin" poemasında "Dərbənd dənizinin bir sahmanında", "Arrandan başlamış Ərmənə qədər" hökmdarlıq edən Məhin Banunun dilindən Nizami türklüyümüzün qədimliyini bu cür ifadə edir. Deməli, Arran-Bərdə hökmdarı Məhin Banu özünü Əfrasiyabın, yəni türklərin nəsilindən hesab edir. N.Gəncəvi də Məhin Banunun dilindən bu xalqın kökünün türk olması və türklərin Əfrasiyab (Alp Ər Tonqa) kimi hökmdarının olması ilə fəxr edir.

N.Gəncəvi "İskəndərnamə" poemasında türk xalqlarının qədimliyini, onların adət-ənənələrini böyük ustalıqla əks etdirmişdir. Bu əsərində Makedoniyalı İskəndərin Qıpçaq ellərinə səfərindən bəhs edən N.Gəncəvinin məqsədi türklərin yalnız Azərbaycanda deyil, Orta Asiya və bütün Qafqaz ellərində qədim xalqlardan biri olduğunu sübuta yetirmək olmuşdu. Ümumiyyətlə, N.Gəncəvinin bütün yaradıcılığı bizə onu deməyə əsas verir ki, o bir türk ölkəsində, şəhərində dünyaya gəlmiş, türk kimi böyümüş və türk adına xidmət etmişdir.

N.Gəncəvinin "İskəndərnamə" poemasında türk ölkəsi, türk yurdu və s. mənalarda tez-tez ifadə etdiyi "Xəzran", "Xəzər", "Xəzər dağı" anlayışları da göstərir ki, o, bir türk filosofu olmuş və türk ölkəsində yaşamışdır. "Xəzər dağından Çin suyuna qədər Türklərlə doludur bütün bu yerlər" - yazan N.Gəncəvi birincisi, Azərbaycanın qədimdən türk torpağı olduğunu, ikincisi isə "Xəzər dağı" ifadəsini işlətməklə həmin dövrdə xəzərlər adlı türk etnosunun mövcudluğunu göstərmək istəmişdir.


**Cəfərov Mayis**
**tarix üzrə fəlsəfə doktoru**
**Lənkəran Dövlət Universiteti**
**mayis1968@mail.ru**


## Nizami Gəncəvinin personajları numizmatik materiallarda

XII əsr Azərbaycan tarixinin öyrənilməsində tarixi bilik nümunəsi kimi Nizami Gəncəvinin də əsərləri özünəməxsus yer tutur. Bu səbəbdən avropada V.Cons, C.Etkinson, Y.Hammer-Purqştal, A.Şprenger, E.Braun, N.Xanıkov kimi tədqiqatçılar mütəfəkkirin irsinə müraciət etmişlər. Nizami yaradıcılığını dərindən tədqiq edən Y.Bertels, A.Krımski, A.Boldırev, Y.Marr, H.Araslı, M.Rəfili, Ə.Əlizadə, Əhməd Ataş, A.Ləvənd, Ə.Tərlan, H.Gənc Osman kimi alimlər də mütəfəkkirin irsinə, bədii yaradıcılığına müraciət etmişlər.

Nizami Gəncəvi 1141-1209-cu illərdə yaşayıb-yaratdığı Atəbəylər dövləti "Müsəlman intibahı"nı keçirən islam dünyasının bir hissəsi idi. Burada Atabəylərin möhtəşəm saray kitabxanaları, çoxsaylı mədrəsələr var idi ki, vətənindən ayrı yaşamaq istəməyən Nizami bütün tələblərini durda ödəyə bilirdi. Mütəfəkkir türk, ərəb, fars, yunan dillərini bildiyindən çoxsaylı mənbələri öyrənir və onları təhli edirdi. O, tarix, həndəsə, astronomiya, təbabətə, ədəbiyyata dərindən yiyələnərək "Xəmsə"ni yazmışdır.

Şərq renessansının zirvəsi olan Nizami Gəncəvi ilk dəfə olaraq humanizm konsepsiyasını "Xəmsə" də vermişdir. "Xəmsə"yə daxil olan 20 hekayətdən ibarət olan ilk əsər "Sirlər Xəzinəsi"dir. Bu əsər Ərzincan hakimi Fəxrəddin Bəhram şah ibn Davuda həsr edildiyi məlumdur. 1175-1177-ci illərdə yazılması ehtimal olunan bu əsəri ibrətamiz hekayələrlə diqqəti çəkir.

"Sultan Səncər və qarı" hekayəsi 1086 – 1157-ci illərdə yaşamış, Əhməd Səncər bin Məlikşahdan (1118-1157) bəhs edir. Adı çəkilən Böyük Səlcuq Sultanının adından 1118-1153-cu illərdə 3,48 qram çəkisi olan dinarlar zərb olunmuşdur.

Dahi şairin ikinci əsəri olan "Xosrov və Şirin" poeması 1180-ci ildə III Toğrulun sifarişi ilə yazılmış, Məhəmməd Cahan Pəhləvana göndərilmişdir. Bundan sonra Qızıl Arslanın onunla tanışlığı, ona Həmdünya adlı kənd bağışlaması haqda da müəlliflər məlumat verirlər. Bu əsərin əsas qəhrəmanı II Xosrov, "Müzəffər" (پ رويز خسرو) Sasanilər imperiyasının 590-628-ci

illərdə hakimiyyətdə olmuşdur. O, sonuncu fars hökmdarıdır ki, ölümündən beş il sonra ərəblər bütün keçmiş Sasanilər imperiyası ərazisini ələ keçirmişlər. AMEA Milli Tarix Muzeyinin "Numizmatika Epiqrafika" fondunda Bərdə şəhərində II Xosrovun adından 620-ci ildə kəsilmiş 4 qramlıq (13277) gümüş sikkə qorunub saxlanılır.

Nizami Gəncəvinin üçüncü əsəri "Leyli və Məcnun"dur. Poemanın 1188-ci ildə Şirvanşah I Axsitanın (1161-1170) sifarişi ilə yazıldığı ehtimal edilir. Lakin o, saray şairi olmadığından bundan imtina etmiş, sonra isə bu mövzuya müstəqil müraciət etmişdir.

Axsitanın (1161-1170), Şahənşahın (1197-1204) adı ilə zərb edilmiş bütün aşağı əyarlı, billon sikkələr Şamaxıda kəsilmişdir. Bu sikkələrdə zərb şəhərinin adına və tarixinə çox nadir hallarda rast gəlinir. Lakin İsmayıllı bölgəsində aşkar edilmiş dəfinədə bir neçə nüsxənin üzərində zərb yeri və tarix – "Şamaxı, 1158-ci il" göstərilmişdir. Bu dəfinəyə əsasən söyləmək olar ki, şirvanşahlar, digər hökmdarlar kimi "gümüş böhranı" dövründə sikkə işində yaranmış vəziyyətdən maksimum fayda götürməyə çalışmışlar. Dəfinə sikkələri 1151-1158-ci illərdə zərb edilmişdir, lakin sikkə tiplərinin miqdarını və tipini müəyyən etmək üçün əsas elementlərdən biri olan kartuşlar - 5, variantlar isə daha çox – 12-dir. Bu, tez-tez bir-birini əvəz edən və hər biri gümüşün miqdarının azaldılması ilə icra olunan emissiyalara işarə edə bilər

Nizami Gəncəvi dördüncü əsəri 1196-cı ildə yazdığı "Yeddi gözəl" poemasıdır. Orijinalda "Həft peykər adlanan poema"nın məzmunu nəzərə alınaraq "Yeddi gözəl" kimi tərcümə zamanı adlandırılır. O, poemanı 1197-ci ildə bitirmiş və əsəri Marağa hakimi Əlaəddin Körpə Arslana (1174-1208) ithaf etmişdir. Poemanın mövzusu Sasani hökmdarı olan V Bəhramın həyatı ilə bağlıdır. Azərbaycan ərazisində V Bəhramın adına kəsilmiş numizmatik materiallar Bakıda, Astarada, Lerikdə, Masallıda aşkarlanmışdır. Bu tapıntıların bir hissəsi dəfinə, digər hissələri təsadüfi tapıntılara aid edilir.

Nizami Gəncəvinin sonuncu titanik əsəri tarixi səpgidə yazdığı "İsgəndərnamə" olmuşdur. Əsərin 1200-1203-cü illərdə qələmə alındığı söylənilir. Onun qaldırdığı sosial problemlər bu əsərdə daha geniş və qabarıq əks olunmuşdur. Bu əsər farsca yazılmışdır. Bizim üçün daha əhəmiyyətlisi sonuncu əsərdir ki, bu da iki hissədən ibarətdir. "İsgəndərnamə" əsərinin birincisi hissəsi ("Şərəfnamə") Atabəy Əbubəkr ibn Məhəmmədə, ikinci hissəsi isə ("İqbalnamə") Mosul hakimi Məlik İzzəddinə ithaf edilmişdir. "İsgəndərnamə" poemasının əsas personajlarından biri e.ə. 336 -e.ə. 323-cü illərdə hakimiyyətdə olmuş Makedoniya çarı İsgəndərdir. Azərbaycan ərazisində böyük fatehə aid edilən 6 dəfinə aşkarlanmışdır. Bu dəfinələrdə, e.ə. II əsrə aid edilən (təqlidi gümüş draxma) Makedoniyalı İsgəndərin adına kəsilmiş yerli zərbxana məhsulları AMEA Milli Tarix Muzeyinin "Numizmatika Epiqrafika" fondunda saxlanılır.

Fəlsəfi, bədii və tarixi təfəkkürümüzün inkişafında zirvə olan Nizami Gəncəvi irsi bu gün də aktualdır. O,əsərlərində qoyduğu problemlərə görə demək olar ki, bütün bəşəriyyətə mənsub olan bir mütəfəkkirdir. O, hər bir insana xas olan ən nəcib hissləri, humanizmi, insanpərvərliyi həm Yaxın Şərq, həm də dünya ədəbiyyatına gətirmişdir. Ona görə də bəşəriyyət və onun mədəniyyəti yaşadıqca Nizami dühası da yaşayacaqdır.

**Əhmədova Türkan**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**turkan_ahm@mail.ru**

## Gəncə mühitindən yüksəliş

Tarixə nəzər yetirsək, XII-XIII əsrlər Azərbaycan mədəniyyətinin yüksəliş dövrü kimi xarakterizə olunur. Həmin dövrdə Gəncə şəhəri mədəniyyətin inkişaf səviyyəsinə görə Azərbaycanın digər şəhərləri içərisində birinci yeri tuturdu. Tarixi-memarlıq abidələri, çoxsaylı mədəniyyət nümunələri ilə zəngin olan Gəncə şəhəri bir çox yazıçı və

mütəfəkkirlərin yaradıcılıq yurduna çevrilmiş, bəşəriyyətə görkəmli şəxsiyyətlər bəxş etmişdir.

XII əsrin ən uca zirvəsi, dərin zəkası, filosof yazıçı Əbu Məhəmməd İlyas ibn Yusif, yəni Nizami Gəncəvi olmuşdur. Onun mükəmməl poetik istedadı olmaqla yanaşı fəlsəfə, astronomiya, coğrafiya, təbabət və digər elm sahələrində bilikləri vardı. Böyük filosof ərəb və fars dillərini mükəmməl bilirdi. O, əsərlərini fars dilində yazsa da, milli mənsubiyyətinə hər zaman sadiq qalmışdır. Şair, demək olar ki, Şərq şeirinin bütün növlərində poetik nümunələr hazırlamaqla bəşəriyyətin həyatında silinməz iz qoymuşdur.

"Xəmsə" (Beşlik) adı altında toplanan poemalar silsiləsi Nizami yaradıcılığının ən yüksək nöqtəsi idi. Nizami Gəncəvi irsi dünya ədəbiyyatşünaslığında daim diqqət mərkəzində olmuşdur. Dahi şəxsiyyətin "Xəmsə"si türklərin müxtəlif dövrlərdə ictimai-siyasi tarixinin və milli mədəniyyətinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Nizami "Xəmsə"sinə daxil poemalarında hadisələrin harada baş verməsindən asılı olmayaraq, əhvalatların çoxu Azərbaycanla bağlanır.

Nizami yaradıcılığı zaman və məkan tanımadan humanizm, azadlıq, sülh, ədalət, xeyirxahlıq, dostluq və müxtəlif ideyaları təbliğ etmişdir.

Nizami Gəncəvinin doğma xalqına, qədim Azərbaycan mədəniyyəti və əski türk ədəbi qaynaqlarına bağlılığını elmi əsaslarla sübuta yetirən bir çox mənbələr vardır. Onun türklüyə münasibətinin öyrənilməsi baxımından M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" monoqrafiyası əhəmiyyətlidir.

Görkəmli nizamişünas alim Həmid Araslının fikrinə gəlincə, Nizami həqiqi vətənpərvər kimi ayrı-ayrı xalqların tarixindən, tarixi şəxsiyyətlərindən bəhs edərkən öz vətəninin gözəlliklərindən danışması, hadisələri mümkün olduqca öz yurdu ilə bağlaması, öz millətinin tarixindən bəhs edən hadisələri canlandırması doğma xalqına, öz vətəninə məhəbbətindən irəli gəlirdi. Alimin "Nizamidə xalq sözləri, xalq ifadələri və zərbül-məsəllər" adlı məqaləsi Nizami Gəncəvinin doğma yurduna, xalqına, Azərbaycan mədəniyyəti, əski türk ədəbi qaynaqlarına bağlılığı elmi əsaslarla sübuta yetirilmişdir.

Nizami bədii irsi ölümsüz bir sənət yadigarıdır. Şairin xatirəsinə ehtiram və məhəbbətin bariz nümunəsi olan işlər bu gün də onun doğma vətənində görülməkdə və getdikcə geniş vüsət almaqdadır. Dövlət başçışı İlham Əliyev 2021-ci ili "Nizami Gəncəvi ili" elan etməsi böyük mütəfəkkirin yaradıcılığına verilən dəyəri bir daha sübut etdi.

**Əliyev Mehman**
**filologiya üzrə fəlsəfə doktoru**
**Lənkəran Dövlət Universiteti**
**mehman.aliyev57@gmail.com**

## N.Gəncəvinin "Yeddi Gözəl" poeması çağdaş Azərbaycan Nəsri kontekstində

Çağdaş romançılıq ənənələrinə uyğun gələn "Yeddi gözəl" poeması heyrətamiz dərəcədə maraqlı struktura, modern nəsr elementlərinə malikdir. Əsəri poema içərisində poema, roman içərisində roman adlandıranlar, zənnimizcə, yanılmırlar. Poemanı çağdaş Azərbaycan nəsri kontekstində təhlilə cəlb etdikdə biz bunu çox aydın bir şəkildə görə bilərik.

Çağdaş dünya və Azərbaycan nəsrinin qüdrətli nümayəndələri kimi, dahi Nizami Gəncəvi də öz mətnlərini sanki bizə məlum olan və olmayan başqa mətnlər əsasında qurur. Bildiyimiz kimi, Nizami "Xəmsə"sinin ana qaynağında Firdövsi mətnləri durur. Amma dahi sənətkar heç zaman ortada olan tək bir mətnlə - hazır mətnlə işləmir, onun dekonstruksiya edib, tamamilə orijinal mətnlər ortaya qoyur.

Nizami ayrı-ayrı zamanlara aid olan tekstlər arasındakı daxili əlaqəni tapıb onları əlaqələndirə bilirdi, çağdaş terminlə ifadə etsək, intertekstuallıq yarada bilirdi. Başı eyş-işrətə

qarışan Bəhram şah ölkənin daxilində gedən proseslərdən kənarda qalır. Bu situasiyadan məkrli bir niyyətlə yararlanan vəziri Rast-Rövşən ölkəni talayır, namuslu insanlara divan tutur. Sadə bir çobanın ibrətamiz dərsi ilə qəflət yuxusundan ayılan Bəhram şah vəzirinin yeddi günahsız insanı zindana saldırmasından xəbər tutan kimi onları azad elətdirib yanına çağırtdırır, onları dinləyir və haqlarını gec də olsa, bərpa edir. Dahi Nizami bu məzlumların şikayətlərinə bəşəri prizmadan baxır və göstərmək istəyir ki, zalımın, zülmün, zülmkarın vətəni olmur. Yeddi məzlumun milli mənsubiyyətində müəyyən fərqlər olsa da, dahi sənətkar onları bir-birindən ayırmır, hamısına eyni gözlə - humanizm nöqteyi-nəzərindən baxır. İçərilərində azərbaycanlı da, kürd də, fars da, çinli gözəli əlindən alınmış məzlum da vardır. Onları birləşdirən fərqli yollarla bədbəxt olmalarıdır. Bu yerdə dahi rus yazıçısı Lev Tolstoyun "Anna Karenina" romanının ilk cümləsi yada düşür: "Bütün xoşbəxt ailələr bir-birinə bənzəyir, hər bədbəxt ailə isə özünə görə bədbəxtdir". Yeddi məzlumun şikayəti həm də yeddi fərqli mətn deməkdir. Amma Nizami dühası onları yeddi gözəlin danışdığı hekayətlər kimi ortaq bir nöqtədə elə birləşdirir, əlaqələndirir ki, ortada olan mətn tam, bütöv bir mətn kimi qavranılır. Bu hal çağdaş nəsrimizdə də çox qabarıqdır.

Əgər desək ki, Nizami məcazlarının da batini dini-mifoloji yaddaşı vardır, yanılmarıq. Çünki Nizami yaradıcılığında məcaz məcaz xatirinə yaradılmır, həm də onların dəqiq, konkret sərhədləri yoxdur. "Yeddi gözəl" bütövlükdə məcazlar üzərində qurulub; əsərin adından tutub strukturunacan. Nizami məcazları ideya-struktual, tarixi-mifoloji baxımdan İntibah dövrünün dahi rəssamları Mikelancelo və Rafaelin tablolarını xatırladır. Dini motivlərə bağlılıq onları birləşdirir. Bu hal çağdaş tarixi romanlarımızda bir qədər fərqli bir şəkildə özünü göstərir. Nəriman Əbdülrəhmanlının "Taclı", "Qurban", Kamal Abdullanın "Yarımçıq Əlyazma" və "Sehrbazlar dərəsi" romanlarındakı məcazlar sistemi dediyimizə əyani sübutdur.

Məşhur postmodernist İtalya yazıçısı İtalo Kalvino yazır: "Yeddi gözəldə cəmləşən fərqli ənənələri bir-birindən ayırmaq qeyri-mümkündür, çünki Nizaminin başgicəlləndirici məcazi dili bunların hamısını bir qabda əridir və gözoxşayan bir boyunbağının qiymətli daş-qaşları kimi hər səhifədə iç-içə keçmiş məcazlar kolleksiyası yaradır".

Nizami özünəqədərki ənənəvi əsərlərdən fərqli olaraq, mistik və simvolik bir əsər ortaya qoymuşdur. Hətta "Yeddi gözəl"dəki Nizami realizminin özü belə simvolikdir. Demək olar ki, bu, əsl magik realizmdir. Onun Latın Amerika yazıçılarını, xüsusən, magik realizmin ən böyük nümayəndəsi sayılan Nobelçi Kolumbiya yazıçısı Markesi də bir neçə əsr qabaqlaması göz qabağındadır. Şair özü bu barədə yazır:

Onu hər dənəsi əncir ləzzəti verir,
İçində isə badam ləpəsi vardır.
Surətpərəstlər üçün surəti qəşəngdir,
Məzmun sevənlər üçün də məğzi (ləpəsi) vardır.
Bağlı bir mücrüdür, içi dürrlə dolu,
Bu dürrlərin sapı o başın boynunu bəzəyir ki,
Açarı ilə mücrünün qıfılını aça bilsin.
Onun nəzmində nə yaxşı, pisi varsa,
Hamısı rəmz və hikmətin nişanələridir. ("Yeddi gözəl", Filoloji tərcümə Rüstəm Əliyevindir, səh: 291)

Mütəfəkkir şair poemasının iki tip oxucu üçün nəzərdə tutulduğunu deyir: Surətpərəstlər və batinçilər (məzmun sevənlər) üçün. Nağılçılıq, hekayəçilik, saysız-hesabsız oyun elementləri birincilərin zövqünü oxşayır. Tanrı dərgahı altında insan fəlsəfəsinin ən mübhəm laylarının metafizik açılışlarını görmək isə ikincilərin alnına yazılıb. Nizami yanaşması bugünkü modern dünya nəsri modelinə tam uyğundur.

"Oxucu-müəllif-mətn" konsepsiyasının posmodern elmi əsaslarını hazırlayıb, "İşarə qanunları mədəniyyət qanunlarıdır" deyən böyük filosof-yazıçı Umberto Eko qeyd edirdi ki, sözlər heç bir zaman mənanı tam ifadə edə bilməz, sözün varlığı sonsuz işarələr sisteminin yalnız bircə təzahürü ola bilər. Böyük Nizaminin "Yeddi gözəl" poeması da bizi qeyri-adi işarələr sistemi ilə dünya mədəniyyətinə qovuşduran heyrətamiz və dahiyanə bir əsərdir.

**Əskərov Dəyanət**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**dayanat.askarov@mail.ru**

## Nizami Gəncəvinin mütərəqqi ideyaları

Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin mütərəqqi ideyaları dünya fikir tarixində ən önəmli yerlərdən birini tutur. Yüksək bəşəri dəyərlərin, humanizmin, zəhmətin, haqqın, ədalətin, əxlaqın, ümumən yaradıcılığında isə bütün insani keyfiyyətlərin hamısı olaraq özünü göstərən bu müdrik şəxsiyyət, bəşəriyyətin qabaqcıl fikirlərinin təbliğ edilməsində müstəsna mövqeyə malikdir.

Əsas qayəsi etibarıyla xalqımızın özünədərki tarixi keçmişinə məxsus ümumbəşəri ideyalarından, folklor nümunələrindən, həmçinin də bu meyyarlardan bəhrələnən fərdi yaradıcı təfəkkürüylə Şərq poeziyasında, ən vacibi isə ədəbiyyat tariximizdə yeni səhifə açmış "Xəmsə"yə daxil olan əsərləriylə son dərəcədə orijinal və ümumbəşəri dəyərlərlə bəzənən gözəl və misilsiz poemalar yaratmağa müvəffəq olmuşdur.

Mütəfəkkir şairin yaradıcılığı bir də ona görə daimiyaşardır ki, hər bir əsərinin ərsəyə gəlməsində əvvəlcə araşdırmalar aparmış, daha sonra tarixi reallıqlar zəminində və özünəməxsus ustalığı, qeyri-adi istedadı, bacarığıyla fikirlərini ifadə edə bilmişdir:

Dünyada nə qədər kitab var hələ,
Çalışıb mən onu gətirdim ələ.

deməklə, böyük şair bu qanunauyğunluqları xüsusi ustalıq bacarığıyla digərlərinə də təbliğ edir; şeiri elm-ürfanla birləşdirdiyini qeyd edirdi. Məhz, bu yanaşma tərzinə görədir ki, onun əsərləri nəinki ölkəmizdə, eləcə də bütün dünyada heyranlıqla öyrənilir, elmi-mütərəqqi ideyaları, hadisələrə baxış təfəkkürü təbliğ olunur. Elə bu nöqteyi nəzərdən bildirmək istərdik ki, Nizami Gəncəvi yaradıcılığındakı doğmalıq həm də onun xalq qaynaqlarımızdan düzgün və yerli-yerində istifadədə, xalq arasında olaraq daim onlarla təmasda olmasında, yaşlı və müdrik insanlarla sıx əlaqəsində, ümumtürk ideyalarını təbliğ edərkən mədəni-mənəvi dəyərlərimizdən düzgün və yerli-yerində istifadə etməsindədir.

Mütəfəkkir şair insan ömrünün əsas mənasını çalışmaqda, yaşayıb yaratmaqda görürdü. Onun əsərlərində bu ülvi durum elə mükəmməlcəsinə təbliğ edilmişdir ki, bizlərə xalq yaradıcılıq nümunələrimizdən ana laylası, ata nəsihəti qədər əziz və doğmalıq bəxş edir. Beləcə etik, estetik çalarlarla bəzənmiş bu nümunələrlə poeziyanın ən yüksək sənətkarlığına nail olunmuş, fikirlərdəki vətənə, onun insanlarına sevgi, hörmət motivləri bənzərsiz bir şəkildə ifadə edilmişdir:

Qana qəltan etsə də, səni zəhmət tikanı,
Çalışmaqdan usanma, işə alışdır canı.

– deməklə, Şeyx Nizami həm də insanın məqsədinə nail olması üçün əsas vasitənin məhz əmək, zəhmət olduğunu yaxşı bilir və insanlıq üçün xoşbəxt gələcəyi əldə edə bilməyi, məqsədə doğru zəhmətə qatılmağın vacibliyini, icra etmək üçün isə asan yolunu göstərir və onları bu məsuliyyətə hazırlayır; "hazırlayır" deyirik ona görə ki, bu nəsihətlər insanlıq var olduqca öz reallığını itirməyəcəkdir. Çünki şüurlu əmək, məsuliyyət və zəhmət insanı hər dövr üçün ucaldan əsas həyat nişanələridir.

Öz halal zəhmətində namuslu insan sayıl,
Hər yetənə alçalma, əl açıb olma sayıl!..

– poetik təfəkkürüylə isə bu çalışmalarda haqq edilən ruzinin də önəminə diqqət yönəldərək, halal əməyin önəmini vurğulamışdır.

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.

– deməklə, ümuminsanlığı elmlərə yiyələnməyə səsləyir, bir çox mətləblərin məhz, dolğun biliklərlə əldə etməyin mümkünlüyünü qeyd edir, yalnız elmi biliklərə malik olanların daha çox üstünlüyünü qəbul edirdi.
Böyük şair fəlsəfi görüşləri etibarıyla ilahi eşqə çox yüksək dəyər vermiş, bəşəriyyətin var olma səbəblərindən birini bunda görmüşdür. Doğruluğa, yəqinliyə çatmaq üçün məhz haqq – eşq yolunu əsas görən bu müdrik insan:

Eşqin qulu ol ki, doğru yol budur,
Ariflər yanında bil, eşq uludur.

- fikrində idi...Onun əsərlərində həmçinin, ictimai mətləblərdən bəhs olunmuş, dövlət, cəmiyyət, xalq münasibətləri özünəməxsus ustalıqla təsvir olunmuş, bu istiqamətdə çoxlu mütərəqqi fikirləri bədii obrazlarla diqqətə çatdırılmış, yüksək təfəkkür tərzi, özünəməxsus yaradıcı baxış və poetik hünərlə təbliğ olunmuşdur.

Nizami Gəncəvi yaradıcılığının əsas zirvələrindən biri də ağıl və kamalın təbliğidir:

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı.

– söyləməklə böyük şair əslində məntiqi düşüncə bacarığının, yerli-yerində düzgün qərarların, çətin gündə çıxış yolu tapmanın çırağını məhz, yüksək ağılda görür və insanlığa məxsus ən qüdrətli bir “vacibat” olaraq qiymətləndirirdi.

Sözün qüdrətinə inanan və çox böyük qiymət verən müdrik şair:

Qələmə gərəkdir elə söz salmaq,
Şüurdan, ağıldan olmasın uzaq.

– söyləmiş, fikirlərin reallıqla əlaqəli şəkildə ifadə olunmasının vacibliyini qeyd etmişdir. Beləliklə də sözə böyük önəm verərək onun məna varlığına diqqətləri yönəltmişdir.Yaradıcılığı etibarıyla tamamən qeyri-adi istedadına, müdrik dünyagörüşünə heyran qaldığımız bu böyük şairimizin mütərəqqi ideyaları bəşəriyyət var olduqca yaşayacaqdır və çox sevindirici hallardan biri də odur ki, bu ideyaların əsas mənbəyi xalqımızın bu böyük oğlunun yurd sevgisinin, Vətən məhəbbətinin heç vaxt ayrılmağa qoymadığı öz doğulduğu məkanı, Azərbaycan torpağıdır.

**Həsənov Elnur**
**tarix üzrə fəlsəfə doktoru**
**Azərbaycan Milli Elmlər Akademiyası**
**Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutu**
**el-hasanov@mail.ru**

## Nizami Gəncəvi əsərlərində xalq müdrikliyi vətənpərvərlik örnəyidir

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsində xalq hikməti səmavi hökmlərlə birləşərək, fəlsəfi təlimə çevrilir. Söz Tanrısı olan Nizaminin səpdiyi dən artıq adi dən deyil, hikmət dənidir. Dahi şair inanır ki, bir gün bu hikmət dəni göyərəcək, hamı onu əkənə rəhmət söyləyəcək – vətənə xidmət, el-obaya məhəbbət hökmən dəyərləndiriləcəkdir:

Hikmət dəni səpdim ki, vəfa dəni cücərsin,
Hamı alqış oxuyub bir gün barını dərsin.

Nizami Gəncəvi hər şeydən əvvəl ilahi şairdir. Bu şairin ruhu türk ruhudur. Saysız-hesabsız xalq yaradıcılığı çeşməsindən su içən Nizami folklor örnəklərini elə ustalıqla, elə incəliklə dəyişir ki, sözün ruhu belə incimir, əksinə daha da cilalanaraq sənət möcüzəsinə çevrilir:

Əkin-səpin üstündə suyumuz boldu bizim,
Qismətimiz gül əkib, vay dərmək oldu bizim.

“Gül əkib vay dərmək” xalqdan gələn ifadədir. Bir ağıya nəzər salaq:

Vay dərdim,
Vay dərmanım, vay dərdim.

El gül əkdi, gül dərdi,
Mən gül əkdim, vay dərdim.

Gülmək sözünün kökündə "gül" dayanır. İnsan gülləndə gözəlləşir. El arasında belə deyirlər: "Elə bil üzündə güllər açıb". Dərd sözü ilə dərmək bir-birinə yaxındır. Cinas qafiyələr üzərində qurulan bu bayatıda da gül dərmək həqiqi mənada, vay dərmək isə məcazi mənada işlənmişdir. Nizami Gəncəvidə də eynilə belədir.

Dahi sənətkarın ustalığı ondadır ki, folklordan gələn hikməti olduğu kimi saxlamaqla yanaşı onu yeni çalarlarla zənginləşdirir:

Halal zəhmət itməyib, əlləşmək deyil eyib,
Tanrı: "Səndən hərəkət, məndən bərəkət", -deyib.

Bu gün də dilimizdə işlənməkdə olan: "Allah deyər: "Səndən hərəkət, məndən bərəkət",- kimi atalar sözü mənanı daha da qüvvətli ifadə etməyə imkan verir.

Ölməz şairimiz bəzən iki qoşa misranın hər ikisini atalar sözü üzərində qurur. Bu zaman dahi mütəfəkkir vətənin, el-obanın, doğma xalqın gücünün, qüdrətinin miqyasını göstərməyi də unutmur:

El gücü sel gücüdür, hər an çəkin bu seldən,
Yataqda da can alar qisas oxu əzəldən.

Atalar sözünə nəzər salaq. Belə ki, bu qədim folklor örnəklərimizdə də haqqın, ədalətin hər şeydən üstün tutulduğu, xalq müdrikliyinin sarsılmazlığı öz əksini tapdığını görə bilirik:

"El gücü, sel gücü", "Qisas qiyamətə qalmaz", "Buynuzlu qoçun qisası buynuzlu qoçda qalmaz", "Nahaq qan yerdə qalmaz" və s.

Nizami Gəncəvi sənətinin mayası türk ruhundan tutuldu, xəmiri türk əli ilə yoğruldu. Ona görə də Azərbaycan türklərinə məxsus hərəkət, ifadə və deyim tərzi yad dilə çevriləndə belə itmədi, özünəməxsus gözəlliyini, ahəngini, ruhunu qoruyub saxlaya bildi. Sadə bir misal: bir şeyi unudub sonradan yada salanda barmağımızı dişləyirik. Onda itirilmiş yaddaş yenidən bərpa olunur:

Zülmünü yada salıb dişlədi barmağını,
Quşlar da eşidibdi zülmünün sorağını.

Xalq hikmətinin özü də göylərin səsidir. Nizami Gəncəvi o səsi eşidirdi. O səslə yazıb-yaradırdı. Hikmət hikmətdir. Hansı dildə, hansı qəlibdə ifadə olunsa da məna eynidir:

Dünyaca var-dövlətin sayılarmı dünyada?
Dünyadan apardığın bir şey varmı dünyada?

Dünya kimsəyə qalmadı, ömür su kimi axıb getdi. Bəs nədir qalan, nədir bizi bu dünyaya bağlayan? Nədir bizi şərəfləndirən?

Əlçatmaz, ünyetməz bir aləm var: ülviyyət aləmi. O aləmdə hər şey gözəldir. Bu gəldi-gedər dünyanın mənası yalnız ülviyyət aləminə qovuşmaq, əbədi səadətə aparan yolda geriyə boylanmamaq, heç nəyə baxmamaqdır. Könül dünyasından daha dəyərli nə var ki ... Orada hər şey ağappaqdır.

Ömür keçib gedəndi, dünya qalandı sənə?
Ülviyyətə sədaqət, şərəfdi, şandı sənə.
Kətan geymiş ay kimi gözəldi necə canan,
Qəlbimi kətan kimi doğradı necə canan.

Kətan parça məşhur bir bayatını yada salır:

Əziziyəm vətən yaxşı,
Geyməyə kətan yaxşı,
Qürbət el Cənnət olsa,
Yenə də vətən yaxşı.

Nizami Gəncəvi sənətinin Azərbaycan folklorundan qaynaqlanıb səmaya yüksəlməsinin sübuta ehtiyacı yoxdur. Çünki folklor dilin, milli təfəkkürün elə bir qatı, elə bir sahəsidir ki, bu yalnız ruh vasitəsi ilə yaranır, yaşayır və nəsildən-nəslə ötürülür. Dünya, aləm, kainat haqqında hər bir xalqın özünəməxsus düşüncə tərzi, yanaşma üsulu, milli təfəkkürün alt laylarında gizlənmiş və çox sadə şəkildə ifadə olunmuş fikirləri mövcuddur. Məhz bu toplum vasitəsi ilə

hansı sənətkarın hansı xalqa mənsub olması və hansı xalqın mənəvi xəzinəsinin sahibi olduğunu müəyyənləşdirmək olduqca sadə və asandır. Burada ən kəsə və etibarlı üsul folklor materialları əsasında təhlillər aparmaqdır. Çünki folklor demək olar ki, çox az dəyişir. Doğrudur, nəsə itirilə bilər, amma bu şox azdır. Bəlkə də dəryada bir damla nisbətindədir. Azərbaycan folkloruna bələd olmadan milli-mənəvi dünyamızın gizli kodlarını açmaq, o cümlədən Nizami Gəncəvi sənətinin sirlərini aşıqlamaq olduqca çətindir. Çünki bunlar vəhdət halındadır. Dahi mütəfəkkirin irsində xalq müdrikliyi vətənə sadiqliyin, təəssübkeşliyin göstəricisi, milli-mənəvi dəyərlərə sahibliyin örnəyidir.

**Hüseyn Fəxrəddin**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**fexreddin55@inbox.ru**

## Nizami Gəncəvi və dövrünün hökmdarları

Orta əsrlər şərqin böyük şairi Nizami Gəncəvi Atabəylər dövləti dövründə Gəncə şəhərində yaşayıb yaratmışdır. Yaradıcılığı ilə şərq xalqları arasında şöhrət qazanmış Nizami Gəncəvi zamanın tələbi ilə əsərlərini fars dilində yazsa da Azərbaycan poeziyasının banislərindən hesab edilir. Onun beş məsnəvidən ibarət olan "Xəmsə" si şərq xalqları və ədəbi cərəyanları tərəfindən yüksək qiymətləndirilmişdir. Məsnəvilərində bütün şərqdə məşhur olan məhəbbət və qəhrəmanlıq mövzuları şair tərəfindən sənətkarlıqla qələmə alınmışdır. O dövrün ədəbi cərəyanları tərəfindən Nizami Gəncəvinin ustad kimi qəbul edilməsi şərq xalqlarının məhəbbətini qazanması dövrün hakimlərinin diqqətini cəlb etməyə bilməzdi. Dövlət və əyalət hakimləri onu saraylarına dəvət etsələr də Nizami Gəncəvi bu dəvətləri qəbul etməmiş Gəncədə sadə həyat tərzini sürmüşdür.

Şairin yaradıcılıq və nüfuzuna böyük qiymət verən Dərbənd hakimi Müzəffərəddin Afaq adlı bir qıpçaq kənizini ona hədiyyə etmiş və sonralar şair onunla ailə həyatı qurmuşdur.

Qəhrəmanlıq mövzusunda yazılmış "Xosrov və Şirin" poemasında şair Səlcuq hökümdarlarından Toğrul, Qızıl Arslan və Cahan Pəhləvanın adlarını çəkir. Çünki, Nizami Gəncəvi Səlcuq imperiyasının təmsilçiləri olan və getdikcə müstəqilləşən Eldənizlər vaxtında yaşamışdır.

"Leyli və Məcnun" poeması Şirvanşah birinci Axsitanın sifarişi ilə yazılmışdır. Məhəbbət janrında yazılan bu əsərdə bir sıra ictimai-tarixi hadisələr nəzmə çəkilmişdir.

"Yeddi gözəl" poeması Marağa hakimi Ələddin Arslana həsr edilmişdir. Bu məsnəvi şairin geniş dünyagörüşünə və biliyə malik olduğunu göstərir.

Qəhrəmanlıq mövzusunda yazılmış "İsgəndərnamə" poeması iki hissədən ibarətdir. "Şərəfnamə'' adlanan birinci hissə Azərbaycan Atabəylərindən olan Nüsrəttin Əbu Bəkr İbn Məhəmmədə, "İqbalnamə" adlanan ikinci hissə Mosul hakimi Məlik İzzədinə ithaf edilmişdir. Bu tarixi romantik əsərdə ictimai-fəlsəfi mövzular açılır. Mükəmməl təhsil almış və geniş dünyagörüşünə malik Nizami Gəncəvi cəmiyyətdə böyük nüfuz sahibi olmuş və hökmdarların nəzəri –diqqətində olmuşdur. Onlar şairin cəmiyyətdəki mövqeyinə və yaradıcılığına böyük qiymətlər vermişlər.

Nizami Gəncəvinin əsərlərində dövrünün hökmdarları göstərilir və onların ölkədəki sosial-iqtisadi, ictimai siyasəti işıqlandırılmışdır. Nəticə etibarı ilə qeyd etmək lazımdır ki, bu qiymətli əsərlər tariximizin və mədəniyyətimizin öyrənilməsində qiymətli mənbə kimi elmə daxil olmuşdur.

**İbadov Rakif**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**ibadov_rakif@mail.ru**

## Nizami Gəncəvinin fəlsəfi dünyagörüşlərinə dair

Dahi Azərbaycan şairi və müdrik şəxsiyyəti olan Nizami Gəncəvinin yaradıcılığının unikal olması onun dərin təfəkkürə malik olmasından irəli gəlmişdir. Yaradıcılığının rəngarəngliyi və çoxşaxəliliyi təbii ki, bir filosof kimi, Nizami Gəncəvinin müdrik bir insan və fenomen təfəkkür sahibinə yiyələnməsi, onun zəngin zəkaya malik olmasını bir daha sübut edir. Onun təfəkkürü və qeyri-səlis məntiqi düşüncələri ensiklopetik şəxsiyyət mövqeyində olduğunu göstərir. Dünya klassiklərindən biri olan Nizami Gəncəvi "Elmül ədəb", Quran, hədis, təsvir. əruz, inşa, xəttatlıq, insanlıq, eşq, katiblik, natiqlik və s. sahələrinin tədqiqatçı müəlliflərindən biridir. Nizami riyaziyyat, dialektika, həndəsə, sofistika, coğrafiya, məntiq, astronomiya, təbabət tarix minerologiya, kimya və ritorika elmlərlə yaxından məlumatlı olmuş və öz yaradıcılığında həmin elmi sahələrə aid səmərəli fikirlər, diqqəti cəlb edən araşdırmalar və mühüm əhəmiyyətli təhlillər söyləmişdir. "Xəmsə"də əsas idealardan biri də müəllif tərəfindən ilk dəfə dünya elmi üçün əhəmiyyətli olan bir neçə elmi kəşflər söylənsə də, lakin bir neçə əsr sonra yaşamış alimlərin adı ilə səciyyələndirilməsi təəssüf doğurur. "Yeddi gözəl"əsərində müəllif özünün müəyyən fikirlərinin təsvir obyektini daha dolğun və hərtərəfli təqdim etmək üçün müxtəlif vasitələrdən istifadə etməsi təsadüfi olmamışdır. Belə ki, yaşadığı feodalizm cəmiyyətində demokratik və humanist mövqedə çıxış etmək heç də asan ola bilməmişdi. Lakin, hakim sinfin dövlət və cəmiyyəti idarə etmək üçün onların elmə yiyələnmələrini zəruri olmasını qəbul edir. "Leyli və Məcnun" əsərində Nizami yaradıcılığında təkcə ülvi hisslərlə bir-birinə bağlı olan gənclərin talelərini işıqlandırmaq deyil, fanatizmə qarşı olaraq onların bərabər hüquqlu olmaları, bir təhsil müəssəsində təhsil almaları və dünyəvi baxışlara malik olacaqlarına diqqət vermişdir. Əsərdə həmçinin, Nizami təbiət qanunlarını dərk edərək baş verən hadisələrin səbəblərini və nəticələrini öyrənilməsi və tədqiq olunmasının zəruriliyini göstərirdi. Ümumiyyətlə, Şərq alimlərinin əsərlərinə dərindən tanış olmuş və bir sıra nəzəriyyələrin müəllifi olmuşdur, elmli şəxsiyyətləri hünər sahibi və iradə möhkəmliyinə malik bir varlıq kimi səciyyələndirir. "İqbalnamə" əsərində də bu məsələyə yeni prizmadan yanaşır, müdrik insanı yüksək dəyərləndirir, ona hörmət və nəzakətlə yanaşmağı təbliq edir, çünki zəka sahibini güclü və qüdrətli hesab edirdi. Maddi aləmin dərk olunması, materiyanın varlığına münasibətinin izahına səy göstərilməsi, hadisələrin və predmetlər arası əlaqələrin mövcudluğu və onların dərk edilməsi, ətrafımızda doqquz aləmin(yeddi planet və ərş, fələk) və onları əhatə edən ulduzların yaranması və onların sistemli şəkildə hərəkət etmələri Nizami dühasının məhsulu kimi dəyərləndirmək olar. Bundan başqa, onun dahiliyinin əsas səbəblərindən biri də istər Qərb, istərsə də Şərq fəlsəfinə yiyələnməsi və filosofların əsərlərini özünəməxsus formada mütaliə etməsidir.

Sovet İttifaqı dövründə Nizami Gəncəvinin 800 illiyinin keçirilməsi barədə dörd dəfə-1941-ci il, 1979-cu il, 1980-cı il və 1991-ci il qərar qəbul olunmuşdur. Bunlardan yalnız 1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması ilə bu tədbirin həyata keçirməsinə imkan olmamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nizami Gəncəvinin 880 illiyinin keçirilməsi barədə müvafiq sərəncamına əsasən uyğun olaraq Lənkəran Dövlət Universitetində bu gün keçiriləcək respublika elmi- praktik konfrans dövlət müstəqilliyimizin bərpasının 30 illiyi ilə eyni tarixi dövrə təsadüf edir. Nizami Gəncəvinin yaradıcılığına dünyanın 500-dən çox şair, yazıçı, dramaturq, filosof, mütəfəkkir, təbiət elmləri sahəsində çalışanlar istinadlar etmiş və ondan bəhrələnməkdədirlər.

Nizami Gəncəvinin "Xəmsə"si müqayisəsi mümkün olmayan xəzinə, çəki və ölçü vahidləri ilə uzlaşmayan, dünya elmi və fəlsəfəsində mücərrəd görünən, təbiət elmlərinin düşüncə mərkəzinə çevrilən bir idrakın məhsuludur. Onun yaradıcılığında fəlsəfi dərinlik, idraki məzmun, yüksək elm, ictimai mövqey, hadisə və proseslərə diqqət əsas rol oynayır. Şair yaradıcılığında insan faktoruna məntiqi yanaşır, onun saf və ülviliyinə yüksək qiymət verir və kamil insan səviyyəsində görməyi arzulayır, cəmiyyəti materialist baxışları ilə səciyyədə qiymətləndirməyə çalışmışdır. Filosof əsərlərində insan amili məsələsini aydın geniş təfəkkürlə izah edir, onun dəyərinin bir sıra fundamental və təməli hüquqlara malik olması ilə təhlil və müqayisəli fikirlərlə izahını verir. İnsanı əzəmətli və bütün varlıqlarda onun nişanəsini sanki kəşf edir. Bəzi filosoflar kimi, Nizamidə fəlsəfi baxışlarında insan və ruh məsələlərinə diqqətlə yanaşmış və insanın mənəvi təkamülünü və ruhunu sanki seyr etmişdir. İdeal cəmiyyət-dövlətin mövcudluğu ideal insanların olması ilə bağlamışdır. Ədalətli cəmiyyətin yaradılması, hökmdarın öz rəiyyətinə qayğı ilə yanaşması, xalqına arxalanması və böyük qüvvə mənbəyi konsepsiyası ilə çıxış etməsi təsadüfi olmamışdır. Dövlət və cəmiyyət anlayışlarında xalqın arxasında dövlətin dayanması, elə dövlər qarşısında ölkə əhalisinin də dövlət qarşısında öhdəlikləri durur. Müxtəlif vəzifələrinin, hətta müsəlman aləminin daha çox ədalətli olması fikrini səciyyələndirir. Ədalətin carçısı kimi, hökmdarın ağıllı və mərhəmətli olmasını təqdim edir, əks halda ölkənin idarə olunması daha çox fəlakət mənbəyinə çevriləcəyinə gətirib çıxaracağına sübut qalmadığını öz fəlsəfi ideallarında göstərir. Bununla yanaşı, Nizaminin utopiyaya əsaslənan dövlət və cəmiyyət konsepsiyası diqqəti cəlb edir. Dövlətin idarə olunması, quruluşu, xüsusiyyətləri, forma və məzmunu, ictimai quruluşa uyğun spesifik xüsusiyyətləri və s. məsələlər onun yaradıcığında geniş və hərtərəfli təhlil olunur. Müdrik və dahi şəxsiyyət olan Nizami Gəncəvinin yaradıcılığı həmişə tədqiqat xarakterli olmuş, yeni elmi araşdırmalar üçün zəngin və tükənməyən mənbə hesab etmək olar.

**İsmayılova Esmira**
**dissertant**
**Lənkəran Dövlət Universiteti**
**esmira.ans@mail.ru**

## Nizami Gəncəvinin yaradıcılığında əməkçi insan surətləri

Yazılı və şifahi ədəbiyyatda əməyin təbliğinə, əməkçi insanların tərənnümünə bütün dövrlərdə geniş yer ayrılıb. XII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair Nizami Gəncəvi də öz əsərlərində bu bəşəri mövzudan yan keçməmiş, bütün yaradıcılığı boyu əməkçi insanları məhəbbətlə təsvir və tərənnüm etmişdir.

Nizaminin nəzərində əmək insani ləyaqətin başlıca şərtidir, üstün cəhətidir. Dahi şairin bütün yaradıcılığı boyu sevə-sevə təbliğ etdiyi bir ali ideya var - insan cəmiyyətdəki mövqeyindən, maddi vəziyyətindən, qoca və ya cavanlığından asılı olmayaraq əməyi sevməli, özünü vaxtında işə, zəhmətə alışdırmalıdır. Dahi şair bekarçılığı, tənbəlliyi, ətaləti bütün bəlaların kökü hesab edir. Nizami Gəncəvinin əməyə və əməkçi adamlara verdiyi böyük dəyəri beş iri poemasının cəmləşdiyi "Xəmsə"nin təhlili zamanı daha aydın görə bilərik.

Əməyə və əməkçi insana məhəbbət "Sirlər xəzinəsi" poemasında əsərin əsas leytmotivlərindən birini təşkil edir. Quru bir çöldə min zəhmətlə məhsul əkib becərən, onu alnının təri ilə suvaran əkinçiyə zəhmətinin boşa gedəcəyini deyən Süleyman peyğəmbər əkinçidən sərt təpgi görür, əkinçi qoca öz ağıllı cavabı, işinə məhəbbəti, bəhrəsinə bəslədiyi inamı ilə Süleymanı utandırır, xəcalətli vəziyyətə salır. "Süleyman peyğəmbərlə qoca əkinçinin hekayəti"ndə zəhmətkeş əkinçinin dili ilə şair zəhmətə xor baxanlara layiqli cavab verir:

Mən bilmirəm heç suyu varmı, yoxmu tarlanın?
Əkmək mənim işimdir, yetişdirmək tanrının.
Bax, budur suyum mənim-alnımdan süzülən tər,

Lingim, belim, külüngüm-bu dırnaqlar, bu əllər.

N. Gəncəvinin əməkçi insanlara rəğbəti "Kərpickəsən qocanın hekayəti"ndə daha bariz hiss olunur. Kərpic kəsməklə özünə gündəlik ruzi qazanan zəhmətkeş qocanın yanına günlərin bir günü bekar, tüfeyli bir gənc gəlir. Qocanın torpaqla qan-tər içində əlləşdiyini görəndə gənc ona iztehza edir, "bir qarın çörəyi heç kəs səndən əsirgəməz, torpaqla əlləşməyi burax" deyir. Zəhmətkeş qocanın sözləri avara gəncə şillə kimi dəyir, onu dediyi yersiz sözlərə görə utanmağa məcbur edir:

Əziyyətli olsa da, öyrəndim bu sənəti
Ki, boynumda qalmasın bir kimsənin minnəti.
Çörək qazanıram mən, götürmə babalımı,
Min harama dəyişməm birgünlük halalımı.

Nizami əsərlərində əmək və əmək adamlarına humanist münasibət şairin yaradıcılığındakı demokratizmin ən parlaq şəkildə təzahürüdür, insan ləyaqətini şərtləndirən aparıcı amillərdən biridir. Şair bu ənənəsinə "Xosrov və Şirin" poemasında da sadiq qalır. Nizaminin yaşadığı XII əsrdə xalq içərisindən çıxan əməkçi insanı şahlardan uca tutmaq, sənətin şahlıqdan üstün olduğunu demək böyük hünər tələb edirdi. Dahi sənətkar məhəbbətlə yaratdığı Fərhad obrazı ilə bu hünərə sahib olduğunu bir daha bəyan etdi:

Fərhad külüng çaldı, daş quma döndü,
Dağlar zərbəsindən bir muma döndü.

İnsanın əlində hər şey acizdir - deyən dahi söz ustadı zəhməti insanlığın şərafəti hesab edir, hər işə can-başla başlamağı, həvəslə başa çatdırmağı tövsiyə edərək insanı əməlindən, yaxşı işdən zövq almağa çağırır. Ancaq zəhmətkeş insanı yaradılmışın əşrəfi hesab edən Nizami Gəncəvi yaratdığı Fərhad obrazı ilə əməkçi insanlara olan sevgisini təsvir edib.

Dahi söz ustadı məhəbbət dastanı olan "Leyli və Məcnun"da da ənənəsinə sadiq qalmış, əməkçi insanlara olan sevgisini "Oğlum Məhəmmədə nəsihət"də bildirmişdir:

Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.
Məndən söyləməkdir, səndən eşitmək,
Bir insan əliboş gəzməsin gərək.

Əməkçi insanlara hörmət hissini məhəbbət dastanında da önə çıxarması ustad sənətkarın üstün xüsusiyyətlərindən sayılmalıdır. Əsərin müqəddiməsində şair əməyə olan məhəbbətini belə ifadə edir.

Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük şərəfdir kömək.

Nizami Gəncəvi sənətkarlığının ən üstün cəhəti həm də odur ki, şair əməyin, əməkçi insanların tərənnümü ilə işini bitmiş hesab etmir. Şair qəhrəmanlarını təkcə özü üçün deyil, cəmiyyət üçün yaşamağa, ətrafdakıların işinə də yardımçı olmağa çağırır. Şairin qayəsinə görə, insan köməksiz, arxasız həyatda böyük uğurlara nail ola bilməz. İnsan insanların yanında güclüdür, dəyərlidir, xoşbəxtdir. Həmçinin, birgə görülən işin səmərəsi daha faydalı, bəhrəsi daha şirindir:

Taxıldan bir fayda gəlirsə ələ,
Əkinçi əkinə başlar həvəslə.
Taxılın azalsa qədri, qiyməti,
Əkinçi buraxar işi, zəhməti.

"İskəndərnamə" poemasında da şair "Sokratın nəsihətnaməsi"ndə alimin dili ilə hökmdara zəhmətin faydasından söz açır.

Bu nə tənbəllikdir? Giriş bir işə,
Bekarlıq insanı sıxar həmişə!
Özgənin əliylə qazdırma mədən,
Özün bir əl tərpət, əgər dirisən.

Tanınmış ədəbiyyatşünas alim, filologiya elmləri doktoru Xalid Əlimirzəyev "Nizaminin insan konsepsiyası"ndan söz açarkən onun əməkçi insanlara verdiyi dəyəri yüksək

qiymətləndirərək yazmışdır. “Əməkçi insan surətləri Nizami poemalarının bəzəyi, yaraşığıdır, onun humanist insan konsepsiyasının mahiyyətini, ictimai məndəricəsini açmaqda mühüm əhəmiyyətə malikdir. Şairin əməkçi obrazları təkcə dünyanı bəzəyən, abadlaşdıran əməyin, zəhmətin təmsilçiləri olaraq qalmır, həm də yüksək əxlaqi-etik məziyyətlərinin daşıyıcıları kimi diqqəti cəlb edirlər. Əməkçi obrazları, bir çox hallarda, “Xəmsə”nin əsas qəhrəmanları sayılan şahlardan, əyanlardan öz gözəl, nəcib, insani keyfiyyətlərinə görə qat-qat yüksəkdə durur, ağılda, zəkada, dəyanət və ləyaqətdə onlar üçün nümunəyə çevrilirlər”.

Nizami Gəncəvinin əsərlərində əməyə, əkinçi insanlara verilən qiymət elə xalqa, onun milli-mənəvi dəyərlərinə verilən qiymətdir. Dahi şairi əsrlər boyu xalqa sevdirən, xalqın sevimlisi edən də elə bu ali dəyərlərdir. Nizami yaradıcılığı Azərbaycan ədəbiyyatının qızıl səhifəsi olmaqla bərabər, xalqımızın yaşam tərzinin də poetik güzgüsüdür.

**Məmmədova Nərmin**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**ele.eliyev@gmail.com**

## Lənkəran ədəbi mühitində Nizami Gəncəvi ideyaları

Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından biri də Nizami Gəncəvidir. O, yaradıcılığının bədii kamilliyi, ictimai –fəlsəfi mənasının dərinliyi, dəyər və dolğunluğu, əsərlərinin canını təşkil edən dərin humanizm, ədalət və xalq səadəti ideyaları əsrlərdən aşaraq bir günəş kimi süzülüb gəlmiş, yüksək mənəvi keyfiyyətlər xəzinəsi kimi xalq həyatına daxil olmuşdur. Nizami Gəncəvi əsərləri elə bir mənəvi xəzinədir ki, burada insan həyatı və yaşayışının mənasını açan ən müdrik fikirlər, hakimanə sözlər toplanmışdır. Onun yaradıcılığı hər bir yeni nəsil üçün ibrət dərsidir, insanların qəlbində yüksək duyğular oyadan, onları tərəqqi və inkişafa sövq edən, yer üzündə həqiqi bərabərlik, sülh və səadət uğrunda mübarizəyə ruhlandıran misilsiz sənət nümunələridir.

Dahi söz sənətkarının yaradıcılığı özündən sonra bir çox nəsillərin bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir. Bütün dünya ədəbiyyatına sahib olduğu ideyaları ilə qüvvətli təsir göstərən, özündən sonra bir çox məktəb yaradan dahi söz ustası Nizaminin yaradıcılığının təsiri müasir Azərbaycan ədəbiyyatında olduğu kimi onun bir hissəsini təşkil edən Lənkəran ədəbi mühitindən də yan keçməmişdir.

Nizami ruhu demək olar ki, müstəqillik dövrü Lənkəran ədəbi mühitində fəaliyyət göstərən yazarların yaradıcılığında daha çox duyulmaqdadır. Bu ruh Mirhaşım Talışlı yaradıcılığında daha qabarıq formada əks olunmuşdur. Yaradıcılığında Nizaminin yaratdığı obrazları tez-tez xatırlayan ədib onları öz qəzəllərinin də başlıca qəhrəmanına çevirmişdir:

O yandan eşq ilə dağları fəth edir Fərhad,
Bu yanda Şirin edir nəql Xosrova canı...

Və yaxud “Gördüm” rədifli qəzəlində Nizaminin də, özünün də Məcnun kimi olduğunu, lakin Leylilərin müxtəlif olduğunu vurğulaması şairin Nizami ideyalarına bağlılığını sübuta yetirən əsas amillərdən biridir.

Sən də Məcnun mən də Məcnun, Leyli ancaq müxtəlifdir,
Laləzaru kuhsarı sən də gördün, mən də gördüm...

Mirhaşım Talışlı öz yaradıcılığında təkcə Nizami Gəncəvinin mütərəqqi ideyalarından bəhrələnməmişdir, həmçinin dahi sənətkarın şəninə şeirlərdə yazmışdır. “Ey böyük Nizami” adlı şeiri buna nümunə ola bilər:

Nizami Gəncəvi dahi sənətkar,
Bütün qitələrdə tanınır adı,
Onun hər şəhərdə abidəsi var,
Xalqının fəxridir bu söz ustadı.

Nizami Gəncəvinin yaratdığı obrazları Lənkəran ədəbi mühitində yazıb yaradan şair Ziyafətin qəzəllərində də müşahidə edirik. Ümumiyyətlə, Nizaminin yaratdığı Leyli, Məcnun, Fərhad, Şirin obrazları ilə Ziyafətin qəzəllərində tez –tez rastlaşırıq. "Gətirib" rədifli qəzəlində olduğu kimi:

Bağrı qan , didəsi giryandı qəzəl şairinin,
Leylini, həm də Məcnunu pərişan gətirib...
Dalaraq fikrə Nizami götürüb Fərhadı,
Bisutün dağına Şirini peşiman gətirib.

Nizaminin yaratdığı obrazlar Lənkəran ədəbi mühitində fəaliyyət göstərən Ağamir Cavadın qəzəllərinin də əsas leymotivlərinə çevrilmişdir.

Leyli-Məcnun dolanan səhraya bir gəl, bir gəl,
Gör necə üzmədədir qəlbimi hicran, hicran...
Ağamir bəsləmək istər səni, ey gül, ey gül,
Tapa bilməzsən onuntək elə bağban, bağban.

Ədib yaradıcılığında nəinki Nizaminin ideyalarından bəhrələnmiş, eyni zamanda dahi söz ustasının özünü vəsf edən şeirlər də yazmışdır. "Sənin qalxdığın zirvə" adlı şeiri buna nümunə ola bilər:

Ey Şeyx Nizami, yox sənə əvəz,
Yazdığın hər əsər haqqın səsidir.
Tanrı kəlamıtək təmiz, müqəddəs,
Dünyanın sonuncu möcüzəsidir.

Ağamir Cavad öz şeirində şairin dahiyanə fikirlərinin hər kəsə yol göstərən, çətin anlarda köməyə yetən müdrik kəlamlar olduğunu göstərmişdir :

Müdrik fikirlərdən tutmusan çətir,
Köməyə gəlirsən hər çətin anda.
Xoşbəxtlər ölkəsi bizim ölkədir,
Sənintək dahisi vardır cahanda.

Şeirin son bəndində şair müdrik sənətkarın öz sözünün sehirli gücü ilə Allaha daha yaxın olduğunu göstərmişdir:

Varmı sənin qədər Allaha yaxın?
Haqqın keşiyində durmusan ayıq.
Biz sənin qalxdığın zirvəyə qalxıb,
Oradan Allahla danışmalıyıq.

Nizami Gəncəvi yaradıcılığı yüksək insani görüşləri, mənəvi ucalığı tərənnüm edən möhtəşəm sənət abidələridir. Onun bədii irsi bu gün də ən yüksək insani duyğuların toplandığı mənəvi xəzinə kimi hərarətlə qarşılanır və sevilə -sevilə oxunur. Apardığımız araşdırmadan bir daha aydın olur ki, onun mütərəqqi ideyaları hələ də öz ölməz ruhunu qoruyub saxlayaraq bütün dünyada olduğu kimi bir çox sənətkarların yaradıcılığına təsir etməkdədir.

**Rufullayev Qədim**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**qedim73@mail.ru**

## Nizami Gəncəvi və folklor

Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri olan Nizami Gəncəvi təkcə ölkə və regionun hüdudlarında deyil, həm də dünya miqyasında tanınan, zaman-zaman haqqında bəhs edilən, əsrlər ötdükcə daha da fəxrlə anılan sənətkarlardandır. Bunun əsas səbəbi isə dahi sənətkarın özündən əvvəlki sənətkarlara, faydalandığı qaynaqlara olan səmimi ehtiramı və yaratdığı əsərlərdə ümumbəşəri dəyərlərə sadiqliyində idi. Onun yaradıcılığında elm, zəka,

fəlsəfə və poeziya vəhdət təşkil edərək özünəməxsus bir sənət zirvəsi yaratmışdır. Şairin demək olar hər bir əsərində təkcə yaşadığı dövr üçün deyil, cəmiyyət var olduqca daim aktual olan məsələlər, bəşəri problemlər qaldırılmış, onların demokratik həlli istiqamətində mütərəqqi ideyaları ilə çıxış edir. Odur ki, söz sənətkarı əsərlərində ifadə etdiyi əsas fikrə ictimai mənanı da qatır. Şairin hətta sevgidən bəhs etdiyi nümunələrdə belə ictimai məzmun ön plana keçir.

Eşqsiz olsaydı xilqətin canı,
Dirilik sarmazdı böyük cahanı.

Məhz ona görə də N.Gəncəvi yaradıcılığı hələ sağlığında heyranlıqla izlənilmiş, haqqında yüksək fikirlər söylənilmişdir. Təsadüfi deyildir ki, XIII əsrin məşhur Hind şairi Əmir Xosrov Dəhləvi Nizami yaradıcılığına yüksək dəyər vermiş, onun sənət uğurlarına heyranlığını gizlədə bilməmişdir.

Nizami hər sözü demiş birinci,
Qoymamış cilasız qalsın bir inci.

N.Gəncəvi irsinin öyrənilməsi istiqamətində böyük araşdırmalar həyata keçirilmiş, bir-birindən maraqlı nəticələr əldə edilmişdir. Dünya nizamişünaslarından Ç.Riyo, Y.Rıbka, Q.Darab, V.Baxerin, Vəhid Dəstgirdi və sair alimlər söz sənətkarı haqqında araşdırmalarını və qənaətlərini qoyub getmişlər. Bunlardan ən maraqlısı Y.E.Bertelsin Nizami haqqında fikirləridir. O yazırdı: "Yalnız bunu demək olar ki, bu şair bizim üçün izah edilməyən bir möcüzədir.. hər halda, mən şəxsən, dünya ədəbiyyatında buna oxşar bir paralel tapmaqda çətinlik çəkirəm. Nizami üçün miqyas yoxdur, onu ancaq öz ölçüsü ilə ölçmək olar". Yekdil fikir böyük Nizaminin fenomen və bəşəri bir sənətkar olmasıdır. Bəlkə də Nizami Gəncəvi qədər araşdırılan ikinci bir şair tapmaq çətindir. Bəs onda Nizami Gəncəvi yaradıcılığını bu qədər sevdirən nədir? Əlbəttə ki, xalq yaradıcılığından sənətkarlıqla faydalanmaq. Sözün əsl mənasında Nizami Gəncəvi vətənpərvər və milli duyğularla yaşayan bir azərbaycanlı olmuşdur. O, xalqımızın şifahi ədəbiyyatına dərindən bələd olmuş, yeri gəldikcə ayrı-ayrı nümunələrindən qaynaqlanmışdır. Həmid Araslı araşdırmalarının birində, "Sirlər xəzinəsi" əsərindən bəhs edərək qeyd edirdi ki, şair qarşısına qoyduğu ideyaları maraqlı şəkildə oxuculara çatdırmaq üçün xalq rəvayətlərindən istifadə etmiş, "Ənuşirəvan və bayquşların söhbəti", "Bülbül və qızılquşun söhbəti" və başqalarını xalq ədəbiyyatından istifadə yolu ilə yaratmışdır. Bundan başqa N.Gəncəvinin yaradıcılığında təsadüf etdiyimiz "Meyvəsatanla tülkünün nağılı", "Ovçu, it və tülkünün dastanı" kimi nümunələr də Azərbaycan folkloruna aid hekayələrdir.

Nizami Gəncəviyə dünya şöhrəti gətirən, Atabəylər dövlətinin qüdrətli hökmdarlarından olan Məhəmməd Cahan Pəhləvana ithaf edilən "Xosrov və Şirin" poeması da folklor əsasında araya ərsəyə gələn əsərlər sırasındadır. Şair özü vurğulayır ki, bu əsəri Bərdədə el ağsaqqallarından eşitmişdir. "Xosrov və Şirin" poeması təkcə dastan elementləri ilə yadda qalmır, burada xalqımıza aid etnopsixoloji düşüncələr, yuxu yozma, buta vermə məsələləri folklordan gələn məqamlardır.

N.Gəncəvinin "Leyli və Məcnun" əsəri də folklor ənənələri əsasında qələmə alınmışdır. "Leyli və Məcnun" qədim ərəb əfsanəsi olsa da, Azərbaycan ərazisində az dolaşmamışdır. Sözügedən əsərdə iki gəncin başına gələn əhvalatlar xalq yaddaşında dərin iz salmış, adlarına nəğmələr, bayatılar həsr etmişlər.

Sürünü sürün dağa,
Duman, gəl bürün dağa.
Leylisi itmiş Məcnun,
Salıbdır bir ün dağa

Ağız ədəbiyyatında dolaşan "Leyli və Məcnun" dastanı N.Gəncəvi yaradıcılığından yan keçməmiş, öz zəngin poetik axtarışları və istedadı hesabına məşhur əsərini dünya söz xəzinəsinə təqdim etmişdir. Şairin "Yeddi gözəl" əsəri isə xalq nağıllarının ən gözəl nümunələri verilmişdir."İsgəndərnamə" əsərində xalqımızın ən böyük bayramı "Novruz" mərasimi, onun gözəl adətləri vəsf edilmişdir.

Novruz ilə səddə bayramlarında,
Ayinlər yenə də olurdu bərpa.

N.Gəncəvi yaradıcılığı xalq ədəbiyyatında olduğu kimi lakonik və bitkindir, eyni zamanda əxlaqi-didaktik səciyyə daşıyır, müdrik və hikmətli ifadələr əsərlərinə yeni məzmun verir. Məsələn, "Xosrov Şirin" poemasında deyilir:

Səbir qıfıllar açmaq üçün açardır.
Ovda səbirsiz olan şəxsin ovu nişanədən uzaq düşər.
Kim quyu qazsa, özü o quyuya düşər.

Bütün bunlar göstərir ki, folklorumuza məxsus nağıl , əfsanə və rəvayətlər, habelə atalar sözləri, məsəllər, inam və etiqadlar Nizami sənətinin əsas hərəkətverici qüvvələrindən biridir. Ancaq dühası təsəvvür etdiyimizdən daha böyükdür. M.Ə.Rəsulzadənin dili ilə desək, böyük və dahi şair olan Nizami təbiətin bir fenomenidir. Təbiətin böyüklük, gözəllik, rəngarənglik və cazibədarlığını tamamilə qavramaq tamamilə mümkün olmadığı kimi, təbiət qədər böyük və onun qədər qüdrətli olan Nizami yaradıcılığını da tamamilə qavramaq mümkün deyildir.

**Səfərli Elşad**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**elsad-1957@mail.ru**

## Nizami Gəncəvi Azərbaycan ədəbiyyatşünaslığında

Dünya söz sənətinə təkrarolunmaz zəngin bədii irs bəxş edən böyük söz korifeyi Nizami Gəncəvi yaradıcılığı həm də özündən sonrakı ədəbi nəsil üçün nümunə və ənənələr mənbəyidir. Bunun nəticəsidir ki, Şərq və qismən də Avropa ədəbiyyatının ən böyük söz ustadları onun bədii irsindən həmişə yaradıcı ruhda təsirlənmiş, hətta bəzilərinin yaradıcılığı mütəfəkkir şairin ənənə daşıyıcı xarakterində olmuş, onların əksəriyyəti bu ənənənin davamçılarına çevrilmişlər. "Türkanə sözün" misilsiz ustadı N.Gəncəvi bəşəri poeziyanın ölməz söz incilərini yaratmış və mütərəqqi sivil ədəbiyyatlar bu incilərdən bəhrələnməkdədir. Çünki bu cahanşümul söz məxəzinin poetik sistemi təqlid edilməsi mümkünsüz olduğu qədər də gələcək nəsillərin əxlaqi-etik, estetik tərbiyəsində misilsiz təsirə sahibdir.

Şübhəsiz ki, belə bir şairin öz xalqına mənsub olmasını kim istəməzdi ki,? Elə bunun nəticəsi idi özünü Kəyan taxt-tacının varisi hesab edən Axsitanın çox-çox sonralar nəsil davamçıları onu farslaşdırmağa, fars şairi kimi təqdim etməkdən çəkinmirdilər. Bunların sırasında İranpərəst, fars təəssübünü çəkən alimlər buna çox cəhd edirdilər. Təəssüflər olsun ki, bir neçə Azərbaycan ədəbiyyatşünas alimləri, ədibləri də özlərinin Nizamiyə münasibətdə əsassız, ehtiyatsız söylədikləri mülahizələri ilə belələrinin dəyirmanına su tökür, əllərinə bəhanə verirdilər. Belə ki, Azərbaycanın ilk ədəbiyyatşünas alimi, tənqidçisi hesab edilən Firidun bəy Köçərli Azərbaycan ədəbiyyatı tarixini sistemləşdirməyə ilk təşəbbüs göstərdiyi "Azərbaycan tatarlarının ədəbiyyatı" (1903) kitabında yazılı ədəbiyyatımızın başlanğıc mərhələsi üçün bu cahanşümul şairin heç adını belə xatırlamır və ədəbiyyatımızın başlanğıc tarixini Vaqiflə əlaqələndirir, ədəbi dilimizin də banisi onu elan edir.

1919-cu ildə İstanbulda nəşr etdiyi "Azərbaycan ədəbiyyatına bir nəzər" monoqrafik tədqiqatında görkəmli yazıçı, tədqiqatçı Yusif Vəzir Çəmənzəminli Xaqani Şirvani kimi, Nizami Gəncəvini də fars dilində yazdığına görə ədəbiyyat tariximizin başlanğıc mərhələsinin bu şairlərlə başlanmasını mümkünsüz hesab edirdi.

Ancaq bir sıra köklü ədəbiyyatşünaslar sırasında Cümhuriyyət dövrü araşdırıcılarından Adilxan Ziyadxana alqış düşürdü ki, o, Y.V.Çəmənzəminlidən həm də F.Köçərlidən fərqli olaraq ("Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat".1919) əsərində "Azərbaycan ədəbiyyatının mənşəyini ana dilli ədəbiyyatla başlamamış, azərbaycanlı müəlliflərin ərəb və fars dillərində yaratmış olduğu ədəbi irsi də milli ədəbiyyatımızın tərkib hissəsi kimi tədqiqata cəlb etmişdir.

Nizamiyə yüksək dəyər verənlərin, barmaqla sayılanların sırasında görkəmli ədəbiyyatşünas, biblioqraf, mətnşünas Salman Mümtazın da adı mütləq çəkilməlidir. Çünki onun "Azərbaycan ədəbiyyatının qaynaqları" kitabında gedən "Şeyx Nizami" məqaləsində fars dilində yazmasını nöqsan sayanlara və məhz buna görə də Azərbaycan ədəbiyyatı tarixinə salınmamasına etirazını etmiş, Nizaminin əleyhdarlarına kəskin şəkildə iradlarını bildirmişdir.

Ümumiyyətlə, görünür, Nizaminin Azərbaycan mənşəli həmvətənli tədqiqatçılar və bəzi ədəbi simalar tərəfindən heç də bəxti gətirməmişdir. Hətta bəzilərinin, buna imkan və şəraitin olmasına baxmayaraq təəssübkeşlik naminə də Nizaminin tədqiq, təbliğ və tanıdılmasında maraqlı olmamışlar. Belə ki, dünya şöhrətli alim – mütəfəkkir, Kazan Universitetinin professoru Mirzə Kazım Bəy adıçəkilən təhsil müəssisəsinin rektoru, görkəmli riyaziyyatçı alim N.İ.Lobaçevskiyə XIX əsrin ikinci rübünün əvvəllərində hərdən Nizamidən yox, məhz Firdovsinin "Şəhnaməs"indən bəzi nümunələri farscadan oxuyardı. Hansı ki, həmin vaxt M.Kazım Bəyin əlinin altında, yaxud da çox zəngin kitabxanasında Nizami irsindən ibarət 1812 – ci il Kəlküttə, "Xəmsə"nin 1819 – cu il Paris və şeirləri toplanmış 1844 – cü il London nəşrləri, F.İ.Erdman tərəfindən tərcümə edilmiş "Sirlər xəzinəsi", həmçinin "İskəndərnamə", "Leyli və Məcnun" poemalarının bir neçə variantları var idi [Bax: 72, 64 - 74].

Təəssüf doğuran faktdır ki, Ö.Xəyyamla bağlı məqaləsində - "Şərq renessansının ən cəsur siması Firdovsidən sonra Ö.Xəyyamdır" – deyə yazan tanınmış tənqidçi Əli Nazim, ümumiyyətlə heç Nizaminin adını belə renessansla bağlı çəkmirdi.

İş o yerə çatmışdı ki, keçən yüzilliyin 80-ci illərində tanınmış filosof-tənqidçi Asif Əfəndiyev Nizamini "Azərbaycan ədəbiyyatının faciəsi" adlandırırdı. Bu cür yanaşmalar Nizamiyə münasibətdə bəsit mövqe nümayişindən başqa bir şey deyildi.

Lakin nizamişünasların ciddi elmi axtarışları – bu sırada H.Araslı, M.Cəfər, M.Ə. Rəsulzadə, M.İbrahimov, M.Rəfili, R.Əliyev, Q.Əliyev, X.Yusifli, Ə.Ağayev, R.Azadə və digərlərinin səyləri nəticəsində Nizami və onun irsi ilə bağlı qeyri-elim, əsassız mülahizələr rədd edildi və o, Azərbaycan xalqına qaytarıldı. Bu xüsusda M.Cəfər Nizamiylə bağlı 1947-ci ildə yazdığı "Klassik şeirimizdə Nizami yaradıcılığı motivləri" məqaləsini bu cür ekspressiv tərzdə bitirirdi: – "Nizamini biz heç bir zaman və heç vəclə özümüzdən ayrı təsəvvür edə bilmərik. Öz görüşləri və dahiyanə fikirləri etibarı ilə bizə bu qədər yaxın olan Nizami bizim olmayıb kimin olmalıdır?

Əslən ukraynalı şərqşünas, Rusiyada Nizami irsinin görkəmli tədqiqatçısı A.Krımski isə elə bil ki, böyük şairin hansı ədəbiyyata məxsusluğu məsələsinə aşağıdakı əhəmiyyətli qeydi ilə son qoymaqla mənsub olduğu xalqı və ədəbiyyatşünaslarını birdəfəlik arxayın salırdı: "Nizami doğma Azərbaycan şairidir və Azərbaycan qanuni olaraq onunla fəxr edə bilər;..ancaq o həm də dünya ədəbiyyatının iftixarı və bəzəyidir" .

Görkəmli rus yazıçısı N.S.Tixonov "Nizami" məqaləsində Nizami dühasına, "sönməz şöhrətinə" yüksək dəyər verir və onun adını poeziya korifeyləri: Dante, Petrarka, Şekspir, Ş.Rustaveli, Bayron, Höte, Nekrasov, Şevçenko kimi şairlərin sırasında çəkir və yazırdı: "Adı çəkilən poeziya dahilərinin cərgəsini ədalətli sayaraq qeyd etməliyik ki, Azərbaycan mütəfəkkiri zaman baxımından onların hamısından əvvəl gəlir, dünya poeziyasının təməlində bu şairlərin poeziya üfüqlərində görünməsini həyata keçirir. Bu nöqteyi – nəzərdən də Nizami dünya

poeziya dahilərinin **“müəllimi”**, **“müəllimlər müəllimi”** kimi yüksək fəxri ada layiq görülməlidir” .

Nizaminin öz xalqına qaytarılmasında, fars dilində yazmasına baxmayaraq ona Azərbaycan ədəbiyyatının təməl mərhələsində, yəni bu ədəbiyyatın mənşə etibarı ilə sistemə salınmasının başlanğıc dövründə layiq olduğu yerin verilməsində, yaradıcılığını ilkin yüksək qiymətləndirənlərin sırasında Məmməd Əmin Rəsulzadənin fəaliyyəti, həqiqətən də qabarıqdır.

Arif Ərdəbilinin də ədəbi görüşlərində Nizamiyə münasibətin bir az müəmmalı sirləri var. Bəzi sənət və Nizaminin Firdovsi ilə əlaqəli mülahizələrində onun baxışları heç də birmənalı qarşılanmır və müəyyən qədər ziddiyyətli xarakter daşıyır. Demək olar ki, təəssübkeş İran alimlərinin skeptik mövqelərindən heç də seçilmir.

Amma Arifdən fərqli olaraq, onun həməsri, müasiri olan fars – tacik poeziyasının qəzəl ustadı Hafiz Şirazi (XIV) Nizamiyə nisbətdə özü də daxil olmaqla Yaxın və Orta Şərq şeirində kimin kimliyinə aşağıda beytində aydınlıq gətimişdir.

Qoca dünya Nizami şeirindən
Gözəl heç bir söz tanımır. (sətri tərcümə)

Hafiz sətri, yəni filoloji tərcümədə verilmiş bu beytində Nizaminin dünya poeziyasında mövqeyinə işarə vurmaqla həm də onun oğlu Məhəmmədə ünvanladığı nəsihətində şöhrətlə əlaqəli, söylədiyi: “şeirdən ucalıq umma dünyada, çünki Nizamiylə qurtardı o da” fikrinə tam şərik olduğunun sübutunu verməklə yanaşı, elə bil A.Ərdəbiliyə də “kimin – kim” olması deyimini bir növ xatırlamış olur.

**Tahirli Abid**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**habidtahirli@gmail.com**

## Məhəmməd Əli Rəsulzadə: “Gəncəli şair, heç bir mübaliğəyə meydan verməmək üzrə ancaq və ancaq türk olmuşdur”

Sanbalı tədqiqatları ilə dünya, o cümlədən Azərbaycan türkologiyasının inkişafına misilsiz töhfələr vermiş İstanbul Universitetinin professoru, Azərbaycan mühacirətinin parlaq siması, istiqlal mücahidi Əhməd Cəfəroğlunun (1899 Gəncə, 1975 İstanbul) tariximizdə yaşadacaq daha bir şah əsəri, əməli var: “Azərbaycan yurd bilgisi” elmi məcmuəsi. Prof. Ə.Cəfəroğlunun naşiri və redaktoru olduğu bu dərgi İstanbuldakı Bürhanəddin mətbəəsində işıq üzü görmüş, 1932-1934-cü illərdə 36, 1954 – cü ildə 1 nömrəsi çap edilmişdir. Məcmuənin məqsəd və qayəsini bəyan edən “Bir neçə” söz” adlı proqram məqaləsində qeyd olunduğu kimi, Azərbaycanda müxtəlif sahələrin tədqiqinə təşəbbüs göstərilsə də, bir çox sahələrdə müəllifin təbirincə desək, -yeni tikilən böyük binanın təməlində böyük boşluklar var və bu boşluqlar “Azərbaycan yurd bilgisi”nin bir an əvvəl intişarına səbəb olmuşdur. Məcmuə ədəbi-mədəni sahələrin tədqiqi ilə məşğul olacağını bildirsə də, dövrün mövcud çətinliklərinə baxmayaraq, kifayət qədər digər problemləri, o cümlədən ictimai-siyasi məsələləri də işıqlandırmaqdan çəkinməmişdir(ətraflı bax: Abid Tahirli. Azərbaycan mühacirət mətbuatı, I hissə (Bakı, «QAPP Poliqraf» nəşriyyatı, 2002, 158 səh.).

Qeyd etdiyimiz kimi, məcmuənin toxunduğu mövzu dairəsi geniş və rəngarəndir: türkologoya, tarix, etnoqrafiya, arxeologiya, dilçilik, folklor, teatr, musiqi, ümumtürk ədəbiyyatı, ədəbi-mədəni əlaqələr, istiqlal uğrunda mücadilə və s. Klassik ədəbiyyatın tədqiqi və tanıdılması isə “Azərbaycan yurd bilgisi”nin aparıcı sahəsi, əsas istiqaməti və başlıca uğuru idi. Azərbaycan klassik ədəbiyyatının bir sıra görkəmli şəxsiyyətlərinin həyat və yaradıcılığının dərindən və hərtərəfli tədqiqi, dəyərləndirilməsi, o vaxta kimi ədəbi aləmə məlum olmayan bəzi nümunələrin aşkar edilməsi, onların haqqında ciddi və sanballı, bu gün də aktuallığını və əhəmiyyətini itirməyən məqalələrin qələmə alınması məcmuə əməkdaşlarının misilsiz

xidmətidir. Qədim dövrlərdən XX əsrin 20-30-cu illərinədək dövrü əhatə edən məcmuəni ədəbiyyatşünaslıq ensiklopediyası da adlandırmaq olar.

Başlanığıcını XX əsrin əvvəllərindən götürən Azərbaycan nizamişünaslığının inkişafında, zənginləşməsində mühacirlərin tarixi xidməti danılmazdır. Məhəmməd Əmin Rəsulzadənin Nizaminin 800 illik yubileyi münasibətilə 1941-ci ildə yazdığı, ilk dəfə 1951-ci ildə Ankarada nəşr olunan fundamental "Azərbaycan şairi Nizami" əsəri fikrimizi təsdiq üçün yetərlidir. Bundan xeyli əvvəl isə M.Ə. Rəsulzadənin əmisi oğlu, silahdaşı, istedadlı publisist Məhəmməd Əli Rəsulzadənin (1882- Bakı- 1982, İstanbul) “Azərbaycan yurd bilgisi” məcmuəsinin 1934-cü il tarixli 31-32-ci nömrəsində “Cəncəli Nizami” adlı məqaləsi dərc olunmuşdur. Ola bilsin ki, bu gün həmin yazı toxunulan problem baxımından ciddi təəssürat oyatmasın. Amma nəzərə alsaq ki, məqalə Azərbaycan nizamişünaslığının ilk qədəmlərini atdığı, eyni zamanda Nizaminin fars şairi kimi tanıdıldığı, təqdim edildiyi dövrdə qələmə alınmışdır, o zaman yazının həmin dövrdə nə qədər böyük əhəmiyyət kəsb etdiyi , müəllifin əslidə fars şovinizminə sinəsini sipər etdiyi aydın olar.

Məqaləsini “Azərbaycan ədəbiyyatının ən böyük ustadlarından biri sayılan Gəncəli Nizaminin tərcümeyi-halı haqqında, təəssüf ki, hələ bu günə qədər əlimizə sarih (təmiz, aydın- T.A.) bir vəsiqə keçməmişdir. Şairin nə doğum, nə də ölüm tarixi məlumumuz olmadığından, bu xüsusda bir çox rəvayətlər nəql edilmişdir ” –cümləsi ilə başlayan Məhəmməd Əli Rəsulzadə opponentlərinin Nizaminin milliyyətcə fars olduğuna dair heç bir məntiqə, fakta əsaslanmayan fikirlərini özünün tutarlı, təkzibolunmaz dəlilləri, dərin məntiqi, ən əsası isə təzkirəçilərin məlumatları ilə, tarixi mənbələrlə, eləcə də şairin şeirlərində tərcümeyi-halı və milli mənsubiyyəti ilə bağlı fikirləri ilə alt-üst edir. Məlum olur ki, şairin fars olduğunu iddia edənlərin ən böyük “dəlili”, guya onun Qum şəhərində anadan olmasıdır. Məhəmməd Əli Rəsulzadə Qumda çox sayda türk qəbilə və aşirətlərinin yaşadığını yazır və bu qənaətə gəlir: “Nizaminin əcdadının Qum şəhəri civarından Gəncəyə gəlməsi şairin mütləq fars olduğunu isbat edəcək mühik (keçərli- T.A) bir dəlil deyildir”. Müəllifin fikrincə, Nizaminin əsərləri, həmçinin ona ünvanlanan məktublar isə Nizaminin milli mənsubiyyətinin türk olduğuna heç bir şübhə yeri qoymur. “Leyli və Məcnun” poemasını yazmaq üçün Şirvan hökmdarı Əxistan Nizamiyə sifariş verir. Bu münasibətlə onun şairə ünvanladığı məktubda poemanı “vəfasız, bizə yaraşmayan və layiq olmayan türk dilində” yox, fars dilində yazmağı lazım bilir. Məhəmməd Əli Rəsulzadə bu fikirdən belə nəticəyə gəlir: Şahın “Leyli və Məcnun” poemasını türk dilində yox, fars dilində yazması ilə bağlı bu qədər israr etməsi onu deməyə əsas verir ki, şair türkcəni çox yaxşı bilir və hətta şairin özünə qalarsa, əsəri türkcə yazmaq niyyətinə də düşər. Belə olmasaydı, şah şairə “türkcə deyil, farsca yaz” –deməzdi. Nizami fars olsaydı, şahın bu cür israrına nə ehtiyac vardı ki ?!

Şahın şairə məktubu digər bir cəhəti ilə də diqqəti çəkir. Şahın məktubunda poemanın fars dilində yazılması ilə bağlı israrı həmin dövrdə artıq türk dilinin Gəncədə hakim mövqedə olduğuna dəlalət edir. Məhəmməd Əli Rəsulzadə sonra digər bir əsərə- “İsgəndərnamə” poemasına müraciət etməklə öz mülahizələrini və qənaətlərini qətiləşdirir. Poemanın müqəddiməsində Nizami digər əcnəbi dilləri, o cümlədən yəhudi, nəsrani, pəhləvini (fars-T.A) də bildiyini yazır. Həmin misraları Məhəmməd Əli Rəsulzadə sətri tərcümə ilə oxucuya çatdırır: “Dəfinə kimi bol olan sözlər müxtəlif nüsxələrdə dağınıq halda idilər. Hər nüsxədən özlərini aldım. Ən çox yeni yəhudi, nəsrani və pəhləvi tarixlərindən istifadə etdim. Hər kitabdan yaxşılarını seçdim, hər qabıqdan məğzini aldım. Dildən-dilə dəfinə topladım və onlardan hekayələr doğrultdum. Hər dildən məlumatları olan adamın dili qaxınçlardan qısa olur”. Müəllif sitatdan sonra qəti qənaətini bildirir: “Məlumatdan da əldə edilən nəticə budur, şair Nizami bir çox dilləri bilirdi. Nədənsə, indiyə qədər Nizaminin əsərlərində gizli qalan bu nöqtələr ağıllı tənvir edilməmişdir (aydınlaşdırılmamış, işıqlandırılmamışdır- T.A.). Hər kəs ancaq Qumlu olduğuna görə Nizamini fars olaraq tanıtmaqla iktifa eyləmişdir (kifayətlənmişdir). Bizcə isə, Gəncəli şair, heç bir mübaliğəyə meydan verməmək üzrə ancaq və ancaq türk olmuşdur”.

Məhəmməd Əli Rəsulzadənin adı çəkilən məqaləsi haqqında deyilənləri yekunlaşdıraraq bu qənaətə gəlirik: Nizaminin milli mənsubiyyəti ilə bağlı, onun türk olduğuna dair Məhəmməd

Əli Rəsulzadəyədək ara-sıra fikirlər səsləndirilmiş, sonralar bu mülahizə təsdiqini tapmış, mövzu ilə bağlı çox sayda məqalələr qələmə alınmışdır. Amma fikrin bayraqdarı Məhəmməd Əli Rəsulzadə olmuşdur.

## II BÖLMƏ

## NİZAMİ GƏNCƏVİ İRSİ DİL - ÜSLUB KONTEKSTİNDƏ

**Ağazadə Yədulla**
**professor**
**Lənkəran Dövlət Universiteti**
**yedulla.agazade@mail.ru**

### Nizami yaradıcılığı elm, əxlaq və qəhrəmanlıq abidəsidir

Tezisin başlığına çıxardığım ifadələr Nizami Gəncəvi irsinə, zəngin, təkrarsız yaradıcılığına içdən yaşayaraq gəldiyim qənaətdir, münasibətdir. Təbii ki, hesab etmirəm ki, deyilənlər yalnız mənim düşüncəmin məhsuludur. Nizami irsi ilə yaxından tanışlıq hər bir şəxsi çox asanlıqla belə bir yekun qənaətə gətirəcəyi şəksiz-şübhəsizdir. Məhz bunun nəticəsidir ki, dahi Azərbaycan şairi Nizami Gəncəvi öz zamanından başlamış müasir dövrümüzə qədər ədəbi məktəb kimi öyrənilir, sevilir, haqqında, on, bəlkə də yüz "Xəmsə" qalınlığında elmi əsərlər, nəzirələr yazılır və yazılmaqdadır. Möhtərəm cənab Prezident İlham Əliyevin dahi şairin 880-illiyi ilə əlaqədar imzaladığı məlum sərəncam da belə bir diqqətin, hörmətin, ümumxalq sevgisinin çox bariz ifadəsidir. Haqlı olaraq söylənilir ki, "bizim ədəbiyyatda ağlın dastanına zirvə-Nizamidir" (prof. Yaşar Qarayev). Təkcə bizim ədəbiyyatdamı? Görkəmli alim digər yazısında dahi şairin söz sənəti tarixində yerini çox dəqiq göstərmişdir: "Nizami Gəncəvi söz sənətinin dahi təkləri sırasına daxildir".

Hesab edirəm ki, Nizami Gəncəvinin təvazökarlıqla səkkiz əsr bundan öncə özü barədə söylədiyi:

Yüz il sorsan bəs o hardadır?
Hər beyti səslənər: burda, burdadır!

misraları yüz illər deyil, bütün zamanlar üçün canlı və ibrətamiz olan yaradıcılığına həyatilik, yaşarılıq, ədəbilik gətirən dahi şairin şairlik istedadı, fitrəti ilə yanaşı, şəriət və dünyəvi elmlərə dərindən yiyələnməsi əsərlərində bunlardan yaradıcı şəkildə bəhrələnməsidir. Görünür, həm də buna görədir ki, Nizami Gəncəvi müasirləri tərəfindən "Şeyx Nizami", "Həkim Nizami" kimi qarşılanmış, hökmdarlar ona sonsuz ehtiram bəsləmiş, həkimanə fikirlərindən nəsihət almağı özlərinə şərəf bilmişlər. Dahi şairin elmə, alimə, təhsilə böyük önəm verməsi lirik şeirlərindən tutmuş şeir, sənət dünyasının bəzəyi, incisi sayılan "Xəmsə"sindən, bütün əsərlərində ana xətlərdən birini təşkil edir. "İsgəndərnamə"də fateh İsgəndərin dili ilə danışan əslində böyük və uca Nizamidir:

Öz şahlıq taxtında tutarkən qərar,
Əmr etdi, verildi belə bir fərman:
"Alimdir gözümdə ən əziz insan!
Elmlə, hünərlə! - Başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz!
Rütbələr içində seçilir biri-
Hamıdan ucadır alimin yeri! "

Belə misalların sayını artırmaq tezisin imkanları xaricində olsa da, deyilməlidir ki, şairin bütün əsərlərində zəfərlərin qazanılmasında həlledici məqam elmin, alimin fikrindən istifadə etmək olduğu göstərilir.

Nizamiyə görə istər adi insan, istərsə də hökmdar olsun, onu şərəfləndirən əxlaqlı olması, bütün məsələlərə əxlaqla, insafla yanaşmasıdır. "Yeddi gözəl"-də ədalətli şah kimi təqdim

olunan Bəhram şah eyş-işrətə qurşanandan ölkənin idarəsi Rast Rövşən kimi xəyanətkara tapşırıldığından şah və ölkə problem yaşayır. "İsgəndərnamə"-də İsgəndərə uğur qazandıran amillərdən biri də əxlaqlı olması, xəyanəti, satqınlığı bağışlamamasıdır. Dara ilə müharibə zamanı mənsəb və sərvət əldə etməkdən ötrü şahını, başqa sözlə, vətənini satan, İsgəndərə köməklik etməklə ölkəsinin - İranın süqutuna, Daranın ölümünə səbəb olan sərkərdələrin hərəkətinə İsgəndərin münasibəti, onların istəyini yerinə yetirərək başlarına bir teşt qızıl tökməsi, həmin teştin içində öz şahına, rəhbərinə amansız xəyanətə görə isə boyunlarını vurdurması mövzuya əxlaqi yanaşma kimi olduqca qiymətlidir.

Görkəmli rus ədəbiyyat tənqidçisi V.Q.Belinski A.S.Puşkin yaradıcılığı barədə yazdığı silsilə məqalələrinin beşinci sayında A.S.Puşkinin şairlik qüdrəti haqqında danışarkən onu Hömerlə müqayisə edərək yazmışdır: "Yunanlar, Hömer poeziyasının insan ruhuna və qəlbinə göstərdiyi yenilməz təsirinin qüvvəsini ifadə etmək üçün deyirdilər ki, Hömer Afroditanın kəmərini oğurlamışdır..."

"Şair qoca yaşlarında bütün həyat təcrübələrinə bir yekun vurmaq, əldə etdiyi müxtəlif biliklərin hamısını bir möhtəşəm əsərlə birləşdirmək" (akad.E.Bertels) istəyi ilə qələmə aldığı ölməz "İskəndərnamə" poemasını Belinskinin fikirlərinin işığında nəzər yetirdikdə görmək, dərk etmək çətin deyil ki, dahi Nizami əslində fateh İskəndərin qılıncını, alimliyini, peyğəmbərliyini əlinə keçirməyi bacarmışdır. Ən böyük sərkərdə, ən böyük alim, ən böyük münəccim, övliya Nizamidir. Nizaminin bütün əsərlərində, xüsusən poemalarında qələmə aldığı qəhrəmanlıq lövhələrini xalqımız əyani olaraq 44 günlük ikinci Vətən savaşında erməni faşizmi üzərində qələbə çalmağımızla nümayiş etdirdi. Bir daha sübut edildi ki, Nizaminin irsi daim öyrənilən, xalqımızı yenilməzlik ruhunda təbiyə edən elm, əxlaq, ən əsası, qəhrəmanlıq abidəsidir.

**Dənziyeva Könül**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**konuldenziyeva@mail.ru**

## Nizami Gəncəvinin söz dünyası

Dahi Azərbaycan şairi Nizami Gəncəvi dünya şöhrətli bir sənətkardır. Nizami Gəncəvinin yaradıcılığı öz məzmunu, ictimai-fəlsəfi ideyaları, bədii keyfiyyətləri, formasının kamilliyi ilə Azərbaycan və dünya ədəbiyyatında xüsusi yer tutmuş, yeni parlaq səhifə açmışdır.

Nizami Gəncəvi dahi söz ustasıdır. Şair mühüm bəşəri əhəmiyyət daşıyan fikirlərini də sözlə ifadə etmişdir. Məhz ona görə də əsərlərində sözə yüksək qiymət vermək, az danışmaq, yersiz söz deməməmək məsələsindən də bəhs etmişdir:

Sözündə çoxluğa qoyma yer olsun,
Birin yüz olmasın, yüzün bir olsun!
Az danış desinlər sözündə güc var,
Çox sözü dinləyən çox nöqsan tutar.
Çox söyləmək bəlkə sənə asandır,
"Çox oldu" desələr böyük nöqsandır.

Şairin fikrincə, söz, həm də yazılı söz insanların həyatında, cəmiyyətin inkişafında ən təsirli amillərdən biridir:

O zamandan ki, qələm yazı yazdı, dürr saçdı,
Bu dünyanın gözünü ilk dəfə sözlə açdı.

Nizamiyə görə insanların gözünü açan, onları həyatı dərk etmək, ona təsir göstərmək imkanı verən sözdür, qələmdir. Nizami, məhz belə bir həqiqətdən çıxış edərək şair və ədibin mövqeyini, onun yüksək rolunu təyin etməyə çalışır. "Ərşin bülbülləridir qələm çalan şairlər", "Qabağa peyğəmbərlər, sonra şairlər gəldi" – deyən Nizami şair əməyinin şərəfli olduğu qədər də çətin və məsuliyyətli olduğunu unutmur. Onun fikrincə, şairlər quru, mənası söz

deməməlidirlər. Faydalı və hikmətli söz demək isə Nizamiyə görə çox çətin bir iş sayılır. Belə sözlərin hər birisi qiymətli bir gövhərdir ki, “onu daşın bağrından çıxarmaq üçün yeddi göyün göbəyi partlayır”.

Belə çətinliklə yaranan sözün və bədii əsərin qədrini, qiymətini saxlamaq, onun şərəfini qorumaq sənətkarın birinci vəzifəsidir. Şairə görə yaxşı sözün, sənət əsərinin dəyərini dünyada heç bir şeylə ölçmək olmaz. Bir beytin, həqiqi bir şeirin dəyəri bir xəzinə dolusu cavahiratdan yüksəkdir. Belə ki, insanın fitrəti, fitri istedad mədəndə olan qızıla oxşayır, mədəndəki qızılı tapıb meydana çıxarmadan, onu təmizləyib saflaşdırmadan qiyməti bir filizə malik olmaq olmaz.

Şairin fikrincə, istedada malik olub, bütün ömrünü elmə, zəhmətə sərf etməyən adamlar da həyatda heç bir hünər sahibi ola bilməz və layiq olduqları məqama yüksəlməzlər. Bu baxımdan elmə daha yüksək qiymət verərək deyir:

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.

Nizami sözün gücüylə yer üzündə yaşayan insan nəslinin milyon illərdən bəri keçirdiyi həyatı və çətin mübarizələrin unudulmuş səhifələrini yenidən canlandırdı, bəşəriyyətin inkişaf yollarını, gələcək nəsillərin xatirində yaşatdı. İnsanların əxlaq və mənəviyyatına təsir yollarını tapdı, “İnsana arxadır onun kamalı, ağıldır hər kəsin dövləti, malı” – deyərək, onları insanlığın müqəddəs vəzifələri ilə tanış etdi və insanpərvərlik kimi nəcib xüsusiyyətlərin cəmiyyətin bütün fərdlərinin şüurunda dərin kök salmasına çalışdı. Rəhm, insaf, düzgünlük, çalışqanlıq, mehribanlıq və qardaşlıq hisslərini təbliğ etməklə insanların mənəviyyatının yüksəlməsinə təsir göstərdi.

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz, ey dünya, nədir dəyərin?
Eşqsiz olsaydı xilqətin canı,
Dirilik sarmazdı bütün cahanı – deməklə insanlara xas olan eşq və məhəbbətin həyatın bütün sahələrindəki qalib gücünü təsvir və tərənnüm etmişdir.

Böyük mütəfəkkir ulduzlardan bəhs edərkən yenə bədii sözün vasitəsilə canlı lövhələr yaratmış – insan, onun kainatdakı yüksək məqamı və bu məqamı müəyyən edən şüur və təfəkkürün qüdrətindən danışmağa başlamışdır. Kainat əsrarəngiz gözəlliklərə malikdir. Lakin hər şeydən gözəl və hər şeydən üstün, şərəfli varlıq, yalnız insandır. Kainatda olan bütün başqa gözəlliklər, təbiətin yaratdığı bütün maddi və mənəvi nemətlər insan üçündür. İnsan kainatın bəzəyidir.

Şairə görə bu qədər yüksək keyfiyyətlərə malik olan insan həyatda özü öz şərəfini, mövqeyini mühafizə etməlidir. O:

Çalış, insanların işinə yara,
Geysin əməlindən dünya zərxara!
Bacarsan hamının yükünü sən çək,
İnsana ən böyük arxadır kömək ... – söyləməklə söz vasitəsilə insana dərin məzmunlu, müdrik məsləhətlər verir.

Onunçün öyrətdim ki, əlimi bu sənətə
Bir gün sənə əl açıb, düşməyim xəcalətə - deməklə isə insanları öz əməklərinin məhsulu olan bir parça arpa çörəyinə qane olub, azad və alnıaçıq yaşamağa, heç kəsdən minnət götürməməyə, mərd-mərdanə yaşamağa, təvazökar olmağa, öz eyiblərini etiraf etməyə, başqalarının yaxşı sifətlərini təsdiq və təqlid etməyə, yoxsullara rəhm etməyə çağırır.

Beləliklə, Nizami öz mütərəqqi insanpərvər fikirlərini sözlə elə bir şəkildə söyləməyi və elə prinsiplərlə əsaslandırmağı bacarırdı ki, bu fikirlər geniş kütlələrin şüuruna yol tapa bilsin. Bununla da sözlə nəsihətçilik şairin ictimai görüşlərinin ifadəsində mühüm rol oynamışdır.

**Əliyev Ayəddin**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**ayeddin59@mail.ru**

## Nizami yaradıcılığında Azərbaycançılıq məfkurəsi

Nizami Gəncəvi zaman çərçivəsinə sığmayan nəhəng sənətkardır. Həqiqətən də, Şərqin bu böyük insanı əsərlərindəki humanizm, vətənpərvərlik, insan şəxsiyyətinə hörmət, insanı ali məqsədlərə motivasiya etmək və digər ümumbəşəri ideyaları ilə dünyanı sehirləyə bilmişdir. Əsərlərində qoyulan məsələlərə daha yaxından bələd olduqca belə bir şəxsin heç vaxt Gəncədən çıxmayaraq dünya mədəni irsinin şahənşahına çevrilməsi heyrət doğurur. O bir filosof, tarixçi, pedaqoq, siyasətçi, diplomat, insan ürəyinin fatehi kimi böyük möcüzələr yaradır. Fikrimizcə, Nizamiyə elə ən böyük qiyməti Heydər Əliyev vermişdir. 1981-ci ildə Nizaminin 840 illiyinin qeyd edilməsi ilə bağlı Heydər Əliyevin təklifinə Kremldən belə bir cavab gəlmişdi: 840 illik yuvarlaq yubiley deyil, bunu məqsədəuyğun saymaq olmaz. Onda ümummilli lider belə cavab vermişdi: Nizami elə böyük dahidir ki, biz o yubileyi hər il keçirməliyik.

Nizami ilə bağlı mübahisəli qalan məsələlərdən biri də onun milli mənsubluğudur. Yəni onun türkmü, farsmı və ya hansısa millətdən olması məsələsi həmişə müzakirə obyekti olmuşdur.

Filologiya elmləri namizədi Məmməd Ələkbərov hələ ötən əsrin 50-ci illərində yazırdı: "Əsrlər boyu Azərbaycan xalqının böyük şairi Nizamini burjua ədəbiyyatşünasları yanlış olaraq İran şairi kimi təqdim edir və öz iddialarını "Xəmsə"nin fars dilində yazılması faktı ilə isbata çalışmışdırlar. Akademik İ.İ.Meşşaninov bu məsələdən bəhs edərək deyir: "Nizaminin ya konkret tarixi şəraitdə təmamilə xaricdə, ya da ancaq klassik İran ədəbiyyatı planında tədqiq etmək təşəbbüsündə olmuşlar. Yanlış görüşlərə əsaslanan bu cür yanaşma ondan nəşət etmiş ki, "yeni İran" dilində yaranan ucsuz-bucaqsız ədəbiyyatın hamısının İran tərəfindən yaranması ehtimal olunmuşdur".

Şərqşünaslıq institutunun direktor müavini, tarix üzrə elmlər doktoru Şahin Mustafayevin 2010-cu ildə çapdan çıxmış "Səlcuqilərdən Osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər" adlı monoqrafiyasında Nizaminin "Xosrov və Şirin" poemasında özünün milli mənsubiyyəti haqqında "Nezami yekdişi xelvət-neşinəst, Ke, nimi serke, nimi əngəbinəst **(Tərcüməsi:** Bu iqdiş Nizami qərib haldadır, Yarı sirkə dadır, yarı bal dadır.) misralarındakı iqdiş sözünə aydınlıq gətirərək göstərir ki, Səlcuqilər dövründə Anadoluda ***iğdiş***, başlıca olaraq atası türk, anası isə yerli xalqın nümayəndəsi olan şəhər sakininə deyilirdi.

Fikrimizcə, Nizaminin milli mənsubluğu həmişə diqqət mərkəzində olacaq və mübahisələr üçün şərait yaradacaqdır. Ancaq bir məsələ aydındır ki, Nizami Azərbaycanlıdır. O, Azərbaycan torpağının yetişdirdiyi bir dühadır. Odur ki, biz Nizaminin fars, türk, azəri, iğdiş və s. millətdən olması məsələsinə baxmaqdan öncə, onun Azərbaycanlı olmasını xüsusi vurğulamalı və önə çəkməliyik. Bu məsələyə Heydər Əliyevin ideoloji əsasını qoyduğu Azərbaycançılıq prizmasından yanaşmalıyıq. Bu prizmadan yanaşsaq, çox suallara cavab vermək mümkündür. Çünki dahi şairin əsərlərində Azərbaycanlı ruhu, Azərbaycanlı əhval-ruhiyyəsini görməmək mümkün deyil. Bunu həm əsərlərində sərgilədiyi mental dəyərlərimiz, həm Azərbaycan dilinə aid sözlər, Azərbaycan atalar sözləri, milli adət-ənənələrimizin önə çəkilməsi bir daha təsdiq edir. Ümumiyyətlə, Nizaminin Azərbaycanlı olmasını təsdiqləyən onlarla fakt mövcuddur:

1. Bu bir danılmaz faktdır ki, Nizami Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olan Gəncədə dünyaya gəlmiş, oradan bir yerə getməmiş və orada da vəfat etmişdir.

2. Kiminsə hansısa dildə yazması onun milli mənsubiyyətinə dəlalət etmir. Onlarla nümunə gətirmək olar ki, dünya səviyyəli bir çox şəxsiyyətlər ana dilində deyil, ənənəyə uyğun olaraq başqa dillərdə yazmışlar. Məsələn, Xətib Təbrizi, Mahmud Kaşğari, İbn Sina, Lütfizadə, Şəhriyar və s. Azərbaycan çoxmillətli ölkədir. Burada müxtəlif millətlərdən olan ziyalılar, yazarlar, alimlər dövlət dilində yazıb-yaradır, dünyada Azərbaycanı təmsil edir və Azərbaycanlı olmaları ilə qürur duyurlar. O cümlədən Nizamiyə də biz bu nöqteyi-nəzərdən yanaşmalı, daha çox onun məhz Azərbaycanlı olmasını önə çəkməliyik.

3. Axsitanın ona xəbərdarlıq etməsi də çox mətləblərdən xəbər verir. Bu xəbərdarlıq Nizaminin Azərbaycan dilində də əsər yazmasına və ya əsərləri olmasına dəlalət etmirmi? Axsitanın xəbərdarlığından sonra Nizaminin keçirtdiyi psixoloji sarsıntı da çox maraqlıdır:
Qulluq halqasına düşdü qulağım, Qan vurdu beynimə əsdi dodağım.
Məlum olduğu kimi, Nizami dövrü, ümumiyyətlə, Şərqdə intibah dövrü idi. Milli oyanış, Azəri türkcəsinə doğru atılan ciddi addımlar dövrü kimi səciyyələnir. Həmin dövr Azəri türkcəsinin səhnəyə çıxdığı bir dövr idi. Bu da ondan irəli gəlir ki, artıq həmin dövrdə Azərbaycanda ərəb və fars asılılığından qurtulan milli dövlətlər yaranırdı.

XIII əsrin əvvəllərində yaşaması və milliyyətcə ermənilərə mənsubluğu göstərilən Ovanes Erznkaçinin Azəri türkcəsində 2 şeiri bizə gəlib çatmışdır. Onun 4 misralıq "Keşiş oğli və molla ğuzi" şerinə diqqət edək:
Sen musurman molla ğuzi,
Pen Hovvanes keşiş oğli
Yeri, yeri kavur oğli,
Götür pizden mühal sözin. Sual olunur? Necə olur ki, Nizami ilə təqribən bir əsrdə və ya yanaşı əsrdə yaşamış bir erməni Azəri türkcəsində şeir yaza Aazərbaycanlı dahi Nizami bir kəlmə də olsa Azərbaycan dilində şeir yazmasın? Bu, heç bir məntiqə sığmır.

4. "Xəmsə"ni oxuyan hər bir şəxs orada azərbaycanlı ruhunu, ab-havasını görməyə bilməz. Orada verilən adət-ənənələr bu gün də Azərbaycanda yaşamaqdadır. Hətta böyük İran alimi Vəhid Dəstigirdi də sonralar etiraf etmişdi ki, Nizamidən türklük qoxusu gəlir. "Xəmsə"də yas, toy mərasimi ilə verilən bir çox məqamlar bu gün də Azərbaycan xalqının həyat tərzində qalmaqdadır. Nizami əsərlərində göstərilən yas mərasimlərində ölümqabağı vəsiyyət, halallaşmaq, varis təyin etmək, arzularını demək, dəfn, kəfən, ölü üçün yas saxlamaq, ehsan vermək və s. qaydalar bugünkü günümüzlə səsləşir. Maraqlıdır ki, Nizami İsgəndəri yunan adəti ilə deyil, öz dövründə xalq arasında icra edilən adət üzrə dəfn etmiş və onun yas mərasimini də eyni qayda ilə təsvir etmişdir. Nizami "Xəmsə"sində toyla bağlı bütün prosedur qaydalar, demək olar ki, bu gün də xalqımız tərəfindən icra edilməkdədir. Qız bəyənmək, elçilik, nişan, toy, gərdək, üzə çıxmaq kimi mərhələlər Nizami yaradıcılığında xüsusi cizgilərlə nümayiş etdirilir. "Xəmsə"də adqoyma mərasimi də çox maraqlıdır və daha çox türk xalqlarında əmələ görə, şücaətə görə adqoyma ilə müşayiət olunur ki, bu da "Kitabi-Dədə Qorqud"la səsləşir. Məsələn, Xosrov Pərvizin adını sərkəşlikdə əli uzun olduğu üçün, Şirinin adı çox şirin danışdığı üçün, Qeysin adı isə hünərli olduğu üçün və s. qoyulmuşdu.

5. Nizaminin Azərbaycanlı olmasını sübut edən onun qəhrəmanlarıdır ki, onlar yüksək intellektə, mənəviyyata malikdirlər. Nizami məhz Məhinbanunun, Şirinin, Nüşabənin, əsərdə göstərdiyi türk xalqlarının qəhrəman oğullarının obrazlarını böyük məhəbbətlə, coşqu ilə yaratmışdır. İsgəndəri Bərdəyə gətirib Nüşabənin qarşısında başıaşağı eləməsi vətənpərvər şairin böyüklüyünü göstərmirmi? Bildiyimiz kimi, Nizaminin həyat yoldaşı Afaq qıpçaq-türk qızı idi. Nizami məhz "Xosrov və Şirin"də Afaqa məxsus bir çox xasiyyətləri Şirinin obrazında verdiyini söyləyir.

6."Xəmsə"də külli-miqdarda türk-Azərbaycan sözlərinə, hətta şəkilçilərə rast gəlinir. Nümunə üçün onlardan bir neçəsini təqdim edək: ***alaçıq, bayraq, tutuq (örtük, pərdə), çox, çalış, dağ, sancaq (dirək), qılavuz (bələdçi), uşaq, qarınca, boz, kürən, alaşa, yorğa, kəkotu, kişmiş, qoç, yonca, qay, qatıq, dolma, qıyma, yüzbaşı, qızıl, tabaq, qab-qacaq, ağız, boşqab, ələk, çadır, ölkə, kötək, otaq, yaylaq, qışlaq, köçəri*** və s. Nizami Azərbaycan dilində çox işlənən 4 variantlı **–çı** şəkilçisindən fars dilinin qrammatik quruluşuna görə bir variantda **-çi**

şəklində işlətmişdir: məsələn, miyançi, şekarçi. Bundan əlavə dilimizə məxsus **–daş** şəkilçisindən yeri gəldikcə istifadə etmişdir: ***yurddaş, yaddaş*** və s.

7. Tədqiqatçılar Nizaminin əsərlərində işlətdiyi əksər atalar sözü və məsəllərin birbaşa Azərbaycan dilindən fars dilinə çevirdiyini qeyd edirlər. Onların bəzilərinə diqqət edək:
Qorbe bovəd kəzsərhəm pusti
Bəççeye xodra xorəd əs dusti. Tərcüməsi: Pişik bir dərili olduğundan, Öz balasını istədiyindən yeyər. Azərbaycan Atalar sözü: Pişik balasını istədiyindən yeyər
Nəbini morğçün bivəxt xanəd,
Becaye pərfəşani, sər fəşanəd. Tərcüməsi: Görmürsənmi xoruz vaxtsız banlayanda qanad vurmaq yerinə başını kəsdirir. Azərbaycan Atalar sözü: Vaxtsız banlayan xoruzun başını kəsərlər.
Biya ta kəc neşinim, rast quyim. Atalar sözü: Əyri oturaq, Düz danışaq.
Hər kəs ke çəh kənəd uftəd dər çah. Tərcüməsi: Hər kəs quyu qazsa özü düşər.
Doruği ki manənd başəd be rast
Beh əz rasti kəz dorosti codast. Tərcüməsi: Doğruya oxşayan yalan yalana oxşayan doğrudan yaxşıdır.
Kəs nə quyəd ke duğe-mən torş əst. Tərcüməsi: Heç kəs deməz ki, mənim ayranım turşdur.

Nizami əsərlərini hər dəfə oxuduqca yeni bir xəzinə tapmış olursan. Elə onu dünya şairi edən də budur. Və biz də belə bir şəxsiyyətlə fəxr edir və deyirik ki, Nizami Azərbaycanlıdır!

**Əliyev Əlirza**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**alirza1946@mail.ru**

## Nizami Gəncəvinin əsərlərində şəxs adları

Dünya şöhrətli Nizami Gəncəvinin həmişəyaşar əsərlərində külli miqdarda şəxs adları mövcuddur. Müxtəlif səpgili və müxtəlif tərkibli, çox rəngarəng çalarlıqlı bu adlardan şair özünəməxsus və dahiyanə şəkildə məharətlə istifadə etməyi bacarmışdır. Şairin əsərlərindəki şəxs adları ilə tanış olarkən bizdə öncədən elə təəssürat yaranır ki, bunlar hamısı mənşə baxımından ərəb və fars dillərinə məxsusdur. Bu qənaət bizdə hər şeydən əvvəl dahi şairimizin əsərlərinin ümumilikdə fars dilində yazılmasından və oradakı adların müəyyən hissəsinin islam dini ilə bağlılığından irəli gəlir. Lakin şairin əsərləri ilə dərindən tanışlıqdan bunun heç də belə olmadığının və burda türk sistemli şəxs adlarının da mövcud olduğunun şahidi oluruq. “Xəmsə”də öz əksini tapmış ***Çin qızı, Kürd qızı, Pələnglər, Fitnə, Qoca Çoban, Tutiyanış, Atabəy, Eldəgiz, Şirin, Şəkər*** və s. bu kimi adlar sırf qədim türk ad sisteminə məxsusdur. Əslində tədqiqat sübut edir ki, türk ad sistemi tarixən zəngin olmuş və hətta ərəb ad sisteminə də təsirsiz ötüşməmişdir. Bir faktı qeyd edim ki, islama qədər ərəb ad sistemində fəxri adlardan, o cümlədən titullardan istifadə edilməmişdir. İslamdan sonra xüsusilə VIII əsrdən başlayaraq hətta türk ad sisteminə, o cümlədən Azərbaycan ad sisteminə məxsus fəxri adlar ərəb adlarına qoşulub paralel şəkildə işlədilmişdir. Məsələn: ***Qızıl Arslan, Şah Toğrul, Atabəy Eldəniz və s.*** O, cümlədən Nizami Gəncəvidə də ***Bəhram Şah, Qızıl Arslan, Toğrul Şah, Cahan Pəhləvan, Sultan Mahmud və digərləri.***

Əvvəldə də qeyd etmişik ki, Nizami Gəncəvinin əsərlərində şəxs adları çox müxtəlif və rəngarəngdir. Burada ilk növbədə tarixi şəxsiyyətlərin adları geniş mövqedə durur. “Xəmsə”nin tərkibində olan əsərlərdə eləsi yoxdur ki, orada tarixi şəxsiyyətlər iştirak etməmiş olsun. Bu tip şəxslərin demək olar ki, böyük əksəriyyəti şairin müasirləridir. “Leyli və Məcnun” poemasında Şirvan şahlarından ***II Mənüçöhr, oğlu Ağsitan.*** “Xosrov və Şirin”də ***Toğrul Şah, Qızıl Arslan, Sultan Məsud, Eldəgiz, Cahan Pəhləvan, Sultan Mahmud.*** “Yeddi gözəl”də ***Ələddin, Körpə***

***Arslan, Alp Arslan.*** "İsgəndərnamə"də ***Nüsrətəddin Əbubəkr İbn Atabəy (Şərəfnamə), Məlik Nüsrətəddin (İqalbnamə) və s.***

Şairin əsərlərində adlarını çəkdiyimiz və çəkmədiyimiz tarixi şəxsiyyətlərin bəziləri bir obraz kimi səciyyələndirilir, onların əsas xüsusiyyətləri, mənfi və müsbət tərəfləri oxucuya çatdırılır. Bu şəxsləri şairin hər bir əsərində ümumilikdə iki qismə bölmək mümkündür. Birincilər şairin poemalarını ithaf etdiyi tarixi şəxslərdir ki, onlar bir hökmdar kimi hər poemanın əvvəlində və sonunda haqqında tərif söylənilən və şairin müasiri olan şahlardır. Şair türk ad sisteminə müvafiq olaraq həmin adları ilə yanaşı titullarını da vermişdir. Bildiyimiz kimi böyük sənətkar N.Gəncəvi "Xosrov və Şirin" əsərini 1186-1191-ci illərdə hökmranlıq etmiş Müzəfərəddin Osman Qızıl Arslana ithaf etmişdir. Müzəfərəddin ərəbcə fəth, zəfər anlamında müzəffər sözündəndir. Bu söz bütünlükdə "dinin zəfəri" mənasında şahın titulunu bildirir. Osman onun dini anlamında, Qızıl Arslan isə Azərbaycan dilində əsl adıdır.

Əsərin sonunda şahın mədhi hissəsində şair Qızıl Arslana müsbət xarakterinə görə həm də ***Nəcib*** ləqəbinin də verdiyinin şahidi oluruq.

Sonra ***Nəcib*** gəldi dedi: Yubanma!
Ey bilik anası tez gəl dayanma.

Məlumdur ki, şair "Leyli və Məcnun" poemasını hökmdar Axsitanın sifarişi əsasında qələmə almışdır. Şirvan hökmdarlarından olan Axsitan köhnə məlumatlara görə 1120-1149-cu, son məlumata əsasən isə 1159-1166-cı illərdə Şirvan dövlətinin başçısı olmuşdur. Şair onu belə vəsf edir:

Adın Axsitandır, özün söz bilən
Göydəki günəşin ağasısan sən
Bu Bəhrəm nəsəbli ülkər üzlü sən
Məlik Mənuçöhrün sədəf dürüsən

Burdakı Mənüçöhr Ağsitanın atasıdır. Məlum faktlara görə 1120-1149-cu illərdə (digər məlumata görə isə 1159-1166-cı illərdə) Şirvanşahlar hökmdarı olmuş və oğlu 1149-1203-cü illərdə atasını əvəz etmişdir.

"Yeddi gözəl" poemasının hansı hökmdara ithaf olunması da bildiyimiz kimi mübahisələrdən kənarda qalmamışdır. Əsərin filoloji tərcüməçisi Rüstəm Əliyev poemanın Şərqin ən əzəmətli və görkəmli hökmdarı Süleyman Şahın sifarişi əsasında yazıldığını söyləyir. Lakin poemanın aşağıdakı sətirlərindən məlum olur ki, əsər 1174-1208-ci illərdə hakimiyyətdə olan Marağa hakimi ***Körpə Arslana*** ithaf olunmuşdur:

O şahın ləqəbi Ələddindir,
Qoruyub durduğu zaman, zəmindir
Ölkələr fatehi Körpə Arslan şah
Alp Arslandan yüksək olduqca gümrah

Şeirdəki Ələddin Arslanın fəxri dini adı olub ərəb dilində mənası "əla" deməkdir. Körpə isə Arslanın ləqəbidir. Bizcə, Alp Arslan isə Nizamidən əvvəl yaşamış Səlcuqlar sülaləsinin ən məşhur sultanlarından biri olmuşdur. Poemada Körpə Arslanın ailə üzvlərinin adlarının çəkilməsi də bir daha əsərin ona ithaf olunmasını asanlıqla sübut edir:

Nüsrətddin Məlik Məmməd şahdır
Rasiblər deyir ki, qeyd etmiş fələk
Fələkəddin Əhməd adlansın gərək.

Bundan əlavə, poemada hətta Körpə Arslanın həyat yoldaşı Bilqeysin adı da hallanır.

Gülsün qoy Süleyman mülkünün bəxti,
Nurlansın Bilqeysin uğurlu taxtı

Burada həm də körpə Arslanın taxtı-tacı Şərqdə ən böyük hökmdar olmuş Süleyman mülkünə bənzədilmişdir.

Nüsrətəddin Əbubəkr İbn Atabəy Məhəmməd də tarixi şəxsiyyət kimi Nizaminin mühasirlərindən biridir. O, 1191-1210-cu illərdə hökmdar olmuşdur. Əsl adı Əbubəkr olan bu şəxsin daimi fəxri adı Nüsrətəddin olmuşdur. Atabəy isə onun mənsub olduğu sülalənin adıdır.

Şair “İsgəndərnamə” əsərinin “Şərəfnamə” hissəsini də məhz bu hökmdarın şərəfinə ithaf etmişdir. Əsərin əvvəlində Nüsrətəddin Əbu Bəkr padşahın tərifi hissəsində deyilir:

Cahan pəhləvandır, Nüsrətəddindir,
Hökmü düşmənlərə qılınc təkindir...
İstiqbal görəndir ləqəbi Biskin

Bu ləqəbə ədəbiyyatda “piskin”, “piştəkin” şəklində də təsadüf olunur. Poemada şair onu gah Sultan (Sultan Nüsrətəddin ədalətindən...), gah da Məlik (Məlik Nüsrətəddin o şanlı sultan...) adlandırmışdır.

“İsgəndənamə” poemasının ikinci hissəsi olan “İqbalnamə” isə Məlik İzzəddinə ithaf olunmuşdur. Şair bu tarixi şəxsiyyəti əsərinin sonunda belə mədh edir:

Onunla bəzənsin daim tac-taxt!
Məlik İzzəddinə bu çərxi-dövran
Qüdrət kəməndini bəxş etmiş çoxdan

Məlik İzzəddin Keyxosrov varisi və həm də Cahan – Pəhləvandır. Ona görə də şair yazır:

Keyxosrov bəzminin varisi sənsən
O həm şahdır, həm də Cahan Pəhləvan

Bura qədər şairin “Xəmsə”sində adları sadaladığımız tarixi şəxsiyyətlərin müəyyən qismi, şübhəsiz ki, obraz səviyyəsində mövqeyə malik olmamışdır. Lakin “Xəmsə”dəki bir çox tarixi şəxsiyyətləri şair əsərlərinin süjet xətti ilə daha möhkəm bağlılığını nəzərə alaraq onları obraz kimi səciyyələndirmiş və xarakterik xüsusiyyətlərini verməyə nail olmuşdur. Buna nümunə olaraq “Sirlər xəzinəsi” əsərində 531-578-ci ildə İranın Sasanilər sülaləsindən olan Nuşirəvanı, onun ağıllı vəzirini, həmin poemadan Sultan Səncəri, “Xosrov və Şirin” poemasından Hürmüzü, Xosrov Pərvizi, Şapuru, Şirini, Şiruyəni, Şapuru, Bəhram Çübini, “Yeddi gözəldə” Bəhramı, Sasani hökmdarı I Yəzdigiri, Bəhramın tərbiyəçisi Mənzər İbn Nemanı, “İsgəndərnamə”də eramızdan əvvəl IV əsrdə yaşamış Makedoniya padşahının oğlu İsgəndəri, eramızdan əvvəl V əsrdə yaşamış İran hökmüdarı II Daranı, Bərdə hökümdarı Nüşabəni, Yunan filosoflarından Ərəstunu, Əflatunu (Platon) və sairəni göstərmək olar.

Nizaminin əsərlərində dini və mifik adlar da mövcuddur. “Xəmsə”də ***Məhəmməd, Cəbrayıl, Əzrayıl, Mikayıl, Şeytan, Pəri, Div, Əjdaha, Cənnət, Cəhənnəm*** adları bu növ adlardandır.

Dahi şairin “Xəmsə”sində elə adlar vardır ki, bunlar sadəcə xatırlanır və bu və ya digər hadisələrlə əlaqədar oxucunun yadına salınır ki, buna da onomoloji baxımdan xatırlama adlar deyilir. Bu növ şəxs adlarından “Sirlər xəzinəsi”ndə Cəfər Bərməki, Bəsrətli Rabiyəni, “Xosrov və Şirin” əsərində adı çəkilən “Leyli və Məcnun” əsərinin qəhrəmanları olan Məcnunu, Leylini, “Leyli və Məcnun”da Qarunu, “Yeddi gözəl”də Səyavuşi, Yunisi, İbrahimi misal göstərmək olar.

Nizami Gəncəvi bu xatırlama adlarını da əsərlərinin ümumi məzmun və ideyası ilə müəyyən dərəcədə bağlı şəkildə verməyə nail olmuşdur.

Nizami Gəncəvi poemalarında şəxs adları ilə yanaşı digər onomastik vahidlər də çoxluq təşkil edir ki, bunların bütövlükdə geniş tədqiqi onomologiyamız üçün vacib və əhəmiyyətlidir.

**Feyziyeva Ruxsara**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**feyziyev@yahoo.com**

## Nizami Gəncəvi yaradıcılığında təlim-tərbiyə məsələləri

Zamanının böyük sınaqlarından çıxaraq bu günə qədər gələn Nizami Gəncəvinin yaradıcılığı, bəşəri səadət ideyaları bütün dünyaya yayılmışdır. Onun sənət bağçasından gətirilmiş solmaz çiçəklərin ətri bu gün də dünya ədəbiyyatı nümunələri içərisində

duyulmaqdadır. Nizami əsərləri xalq arasında yayılaraq dildən-dilə keçmiş, müxtəlif əhvalatlar, dərin mənalı hekayələr doğurmuşdur. Əsrlərcə onun yaradıcılığı bəşəriyyətin qabaqcıl elm, sənət adamlarının fikri inkişafına yardım etmiş, savadsız və geridə qalmış təbəqələrə belə gedib çatmış, onların gözlərinə səadət və ümid işığı vermişdir. Yaxın Şərqdə Nizaminin adı həmişə ən məşhur şairlərlə yanaşı çəkilmişdir.

Nizami Gəncəvi şair olmaqla yanaşı, həm də böyük tərbiyəçidir. Onun təlim, tərbiyə məsələləri haqqındakı fikir və ideyaları bu gün də öz əhəmiyyətini itirməmişdir. “Xəmsə”nin tədqiqi və təhlili bunu bir daha sübut edir. Şair ilk poeması olan “Sirlər xəzinəsi”ndən başlamış sonuncu poeması olan “İsgəndərnamə”yə qədər bütün əsərlərində ayrı-ayrı şahları müxtəlif vasitələrlə tərbiyələndirməyə çalışmış, sadə insanların dili ilə dövrün şahlarına insanlıq dərsi vermişdir. Nizami yaradıcılığında tərbiyə mövzusu qırmızı bir xətt kimi keçir. “Xosrov və Şirin” poemasında fərsiz, naxələf oğlu Şiruyədən şikayət edən Xosrova vəziri ürək-dirək verir və onu başa salmağa çalışır ki, o, sənin oğlundur, pis ola bilməz, axırı yaxşı olacaqdır.

Sən yaxşısan, o da pis olmayacaq,
Öz tumuna bənzər bar verər budaq.

Verilmiş nümunədə tərbiyənin rolunu açıq- aydın qeyd edən şair elə bu amilin həmişə həlledici rol oynamadığını, “Oddan kül, küldən od olduğunu”, “hər çiçəyin bal, hər qamışın şəkər vermədiyini yazır.

“Yeddi gözəl” poemasında Bəhramla atası Yəzdigirdi müqayisə edən şair irsi amillərin həmişə həlledici rol oynamadığını, “bəzən gövhər daş doğar, bəzən isə əksinə, daşdan gövhər yaranar ideyasını irəli sürür. İrsi xüsusiyyətlərin çətin düzəldiyini qeyd edən şairə görə

Bədxislət doğulub hər kim anadan,
Ölər, o xislətdə gedər binadan.

Yaxud:

Köpək girsə belə dərviş cildinə,
Köpəkdir, köpəkdir, köpəkdir yenə.

Nizami “İsgəndərnamə” poemasında dahi filosof Ərəstunun dili ilə insanlara məsləhət verərək deyir ki, bədəsil insanlara üz göstərməsinlər, belələrinə havayı zəhmət çəkməsinlər. Dahi Nizami əsərlərində irsiyyət amilinə xüsusi yer versə də, onun həlledici olmadığına da əmin idi. O, bütün poemalarında “Əgər insansan, insanları sev” tövsiyəsini verirdi. Yaxşı adamlarla oturub-durmağı, bədəsil adamlardan uzaq olmağı yaxşı tərbiyənin əsası hesab edirdi:

Ağılsız kəslərlə oturub –duran,
Ağıldan, şüurdan deməsin dastan.

Şairə görə pis insanlarla oturub-durmaq sonunda hər bir insanın məhvinə səbəb olacaqdır.

Bədəsil olarsa, əgər bir adam,
Qırmızı gövhəri saraldar tamam.
Ağıllı adamla dost olsan əgər,
Elmi, mərifəti sənə də keçər.

Şairin fikrincə, insanı heyvanlardan fərqləndirən əsas amil onun ağlıdır. Kamil insan olmaq üçün isə elm, təhsil birinci şərtdir. Ağlın çırağının elm, bilik olduğunu göstərən şair:

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz - deyirdi.

Dövrün ideolgiyasına zidd olsa da, dahi şair zamanını qabaqlayaraq təhsilin dünyəviliyi, qadınların təhsil almaq hüququ və s. kimi mütərəqqi ideyalar irəli sürmüşdür. Dövrünün elmlərini dərindən bilən şair dini biliklərlə yanaşı, dünyəvi biliklərin verilməsinə xidmət edən: riyaziyyat, həndəsə, astronomiya, təbabət elmlərinin əhəmiyyətini xüsusi qeyd etmişdir. Şair elmi biliklərə yiyələnməkdə təlimin əhəmiyyətini “İsgəndərnamə”poemasında işıqlandırmışdır. Burada o, İsgəndərin təlim alması səhnəsini konkret nümunələr əsasında göstərmişdir. İsgəndərin hərtərəfli inkişafını təmin etmək üçün atası onun təlimini Niqumaş adlı alimə tapşırır. O, böyük zəhmət hesabına İsgəndərin bütün elmlərin sirlərinə bələd olmasını, gizli biliyə çatmasını təmin edir. Nizami Gəncəvi bu əsərində insanın formalaşmasında təlimlə yanaşı,

tərbiyənin də böyük rol oynadığını xüsusi qeyd edir. İsgəndərin müəllimi ona bilikləri öyrətməklə yanaşı, “ağıla nur, ürəyə qüvvət” verən tərbiyə, hünər və nəzakət” də aşılayır. Şair təlim, tərbiyə işində müəllimin, tərbiyəçinin rolunu yüksək qiymətləndirərək bütün poemalarında bu məsələyə xüsusi toxunmuşdur. Şairin qəhrəmanlarının təlim-tərbiyəsi valideynləri tərəfindən savadlı müəllimlərə tapşırılır. Tərbiyəçidə yüksək savad, humanizm, çalışqanlıq və s. kimi keyfiyyətləri önəmli sayan Nizami şagirdin də təlimə marağını, istedadı və müəllimə münasibətini xüsusi qeyd edirdi.

Səxsiyyətin formalaşmasında təlim-tərbiyənin rolunu xüsusi qeyd edən şair elmin öyrənilməsi və insanda gözəl mənəvi keyfiyyətlərin yaranması yollarını da göstərmişdir. Onun fikrincə, təlim - tərbiyənin əsası sözdür. Sözdən kəsərli və incə həyatda heç nə yoxdur. Sözdən həm incə, həm də kəsərli sözdən güclü həyatda heç nə yoxdur, sözü vaxtında və qədərində demək lazımdır.

Az danış, desinlər sözündə güc var,
Çox sözü dinləyən çox nöqsan tutar.
Çox söyləmək bəlkə sənə asandır,
Çox oldu desələr böyük nöqsandır.

**İbrahimova Leyla**
**doktorant**
**Lənkəran Dövlət Universiteti**
**ileyla_88@list.ru**

## Nizami yaradıcılığının üslubi-poetik xüsusiyyətləri

Azərbaycanın dahi şairi Nizami Gəncəvi dünya ədəbiyyatında parlaq səhifə açmış nadir şəxsiyyətlərdəndir. Şairin əsərlərini solmayan bir çiçəyə bənzətsək, yəqin ki, səhv etmərik. Çünki Nizaminin poeziyası əsrlərdən bəri öz təravətini daim saxlamış, əbədiyaşarlıq nümunəsi kimi dünya mədəniyyətinə, ədəbiyyatına ölməz incilər bəxş etmişdir. Onun xalqımızın mədəni sərvətinə çevrilən əsərləri Azərbaycanla yanaşı, dünya xalqlarının da tarixi keçmişini və adət-ənənələrini özündə əks etdirir.

Bütün dünyanın "Gəncəli dahi" kimi tanıdığı Nizaminin yaradıcılığı Azərbaycan şairinin irsində təkcə Şərq ədəbi-mədəni dəyərləri deyil, eyni zamanda Qərb, yəni o dövrün Qərbi olan antik ədəbi-mədəni dəyərlər öz kamil sintezini tapmışdır. Əslində, Nizami yaradıcılığını tam mənasilə klassik dövrün yeni mərhələsi kimi qiymətləndirmək olar. Çünki məhz Nizaminin yüksək humanist fikirlərində orta əsrlərin mistikasından oyanıb sağlam və ayıq təfəkkürlə hadisə və predmetlərə, insana, cəmiyyət həyatının məna və mahiyyətinə rasional, məntiqi yanaşma tərzinin şahidi oluruq. İnsan xoşbəxt yaşamaq üçün yaradılmışdır və bu ilahi qədəri, tanrısal taleyi heç bir şər qüvvə dəyişdirə bilməz. Nizaminin bütün yaradıcılığından işıqlı bir xətt kimi keçən əsas ideya məhz budur. Həmin ideya sonralar dünya ədəbiyyatında özünü Avropa Renessansı sənətkarlarının yaradıcılığında əksini tapmışdır.

Nizami sənətinin ölməzliyi bir də özünü insan psixologiyasının əbədi problematikasını kəşf etməsində və bu problematikanın həlli yollarını göstərməsindədir. Ədəbiyyatın bəşər həyatında və bəşəriyyətin mədəni inkişafında oynadığı rolu da bəlkə elə bunda axtarmaq lazımdır. Azərbaycan şifahi xalq ədəbiyyatının və başında Nizami kimi dühalar duran yazılı ədəbiyyatın uzun yüzilliklər boyu apardığı etik-didaktik təbliğat olmasaydı, dünya səviyyəsində özünü göstərən bu qədər zülm və zorakılıqlar, haqsızlıq və ədalətsizliklər indikindən daha artıq olar, sivilizasiyanın əldə etdiyi çağdaş nailiyyətlər haqqında ancaq arzulamaq lazım gələrdi. Nizami yaradıcılığının zirvəsinə doğru dabanbasma gələn qlobal fəlakətin - monqol basqınlarının bu böyük dahinin əsərlərini öz tonqalları altında məhv etməməsi bu gün bəzən təfəkkür tərzimizi humanizm baxımından xeyli qabaqlayan Nizami irsindən bəhrələnməyimizə imkan yaratmışdır.

Nizami yaradıcılığının ölməzliyini təmin edən səbəblərdən biri də - onun qoyub həll etdiyi ictimai problemlərdir. Şairə görə, cəmiyyətin başında ağıllı, maarifpərvər hökmdar durmalı, bununla da insanların cəmiyyətdəki ahəngdar münasibətlərini təmin etməlidir. Hökmdar ictimai mühitin başında duran bir şəxs olduğundan, həmin mühitin sağlamlığı bir çox cəhətdən onun şəxsi keyfiyyətlərindən asılıdır. Şairin bütün əsərlərində qoyulan başlıca problem bundan ibarətdir ki, dövlət başçısı Tanrı qarşısında götürdüyü öhdəliklərə əməl etməli, tabeliyində olan insanların xoşbəxtliyi və rahatlığı uğrunda çalışmaqdan bir an belə geri durmamalıdır. Yalnız bu halda cəmiyyətdə fərdlərin ahəngdar inkişafı təmin edilə bilər, Tanrının insanı yaradarkən qarşıya qoyduğu məqsədlər həyata keçirilə bilər.

Nizami Gəncəvi yaradıcılığı onun yaşadığı dövrə qədər farsdilli ədəbiyyatın bütün nailiyyətlərini, Firdovsinin qəhrəmanlığı, Ömər Xəyyam fatalizmi və Sənai lirikasını özündə əks etdirir, zəngin və geniş ənənəni ensiklopedik bilik və dahiyanə şairlik istedadı ilə daha da genişləndirir, məhz bu faktorlar sayəsində Nizami yaradıcılığı Hafiz Şirazinin sözləri ilə desək doğurdan da, "Nizaminin sözlərindəki gözəllik müqayisəedilməzdir".

**Məcidova Leyla**
**tarix üzrə fəlsəfə doktoru**
**Tacibzadə Aytac**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**kameliya-76@mail.ru**
**aytactzade@gmail.com**

## Ümummilli lider Heydər Əliyevin Nizami Gəncəvinin mədəni irsinin təbliğ olunmasında yeri və rolu

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev bildirirdi ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, tərbiyəsinə, əxlaqına, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur.

Ümummilli liderin hakimiyyətinin hər iki dövrünə nəzər salsaq, bu mühüm məqamın şahidi olarıq ki, daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, ədəbiyyatı, böyük tarixi keçmişi ilə qürur duyduğu və gələcək nəsillərin taleyini düşündüyünə görə doğma Azərbaycanı üçün möhkəm baza formalaşdırıb. Nəzərə alsaq ki, hər bir xalqın varlığı, milli kimliyi ilk növbədə milli-mənəvi dəyərlərində ehtiva olunur, bu halda ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ilk görüşünü məhz ziyalılarla keçirməsinin də nə qədər böyük əhəmiyyətə malik, bugünümüzə və gələcəyimizə hesablanmış mühüm addım olduğunu daha dərindən dərk edə bilərik. Ümummilli lider tariximizə sahib çıxmağı, tariximizin saxtalaşdırılmasına yol verməməyi qarşıya mühüm vəzifə kimi qoymuşdur. Onun milli-mənəvi, dini dəyərlərimizin, dilimizin qorunması, tariximizin öyrənilməsi və gələcək nəsillərə çatdırılması yönümündə atdığı davamlı addımların miqyası genişdir. Ümummilli lider, eyni zamanda, gənclərə bu çağırışı edirdi ki, tariximizi, ədəbiyyatımızı yaxşı öyrənin, dilimizi, milli-mənəvi dəyərlərimizi qoruyun.

Ümummilli Lider dünya təcrübəsinə istinadən bildirirdi ki, yubileylərin keçirilməsi bir tərəfdən yubilyarın xalq, ölkə, dünya qarşısında xidmətlərini bir daha təbliğ və nümayiş etdirmək, digər tərəfdən müasir nəslin ona bəslədiyi hörmət və ehtiramı bildirmək deməkdir. Dahi şair və mütəfəkkir Nizami Gəncəvinin insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq anadan olmasının 880 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliğinə çox böyük

töhfədir. Nizami yaradıcılığı xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir. Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. Onun qəhrəmanları ədalət, xalqın xoşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparırlar. İnsan şəxsiyyətinə, insan əməyinə ehtiram şairin yaradıcılığının aparıcı mövzularındandır. Nizami Gəncəvi həm də vətənpərvər şair idi. O, təsvir etdiyi bütün hadisələri Azərbaycanla əlaqələndirməyə, vətəninin keçmiş günlərini tərənnüm etməyə çalışmışdır. Nizami Gəncəvi yaradıcılığında vətən məhəbbəti doğma xalq yolunda qəhrəmanlıq ideyası ilə birləşir. Qüdrətli söz ustasının bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir. Korifey sənətkar öz ənənələri ilə seçilən ədəbi məktəbini yaratmışdır. Nizami Gəncəvinin dünyanın ən zəngin kitabxanalarını bəzəyən əsərləri Şərqdə incəsənətin, xüsusən də miniatür sənətinin inkişafına təkan vermişdir.

Dövlətimizin başçısı İlham Əliyevin 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Sərəncamında da qeyd edildiyi kimi, nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Nizami Gəncəvi ömrüboyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Onun geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Respublikamızda Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Əvvəldə də qeyd etdiyimiz kimi, Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Onun 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

Belə ümumiləşdirmə aparsaq, poeziya dünyasının dahisi Nizami Gəncəvinin ölməz ədəbi irsi təkcə humanizm, insana məhəbbət, yüksək əxlaq, estetik zövq, tərbiyə və bilik mənbəyi, heç vaxt qiymətini, etik təsirini itirməyən əlvan söz, dərin fəlsəfi fikir, hikmət xəzinəsi olmaqla bərabər, həm də canlı tariximizdir, keçmişimizin ən qaranlıq guşələrinə işıq salan sönməz məşəldir. Mütəfəkkir şairin ədəbi irsinin təbliği bütün dövrlər üçün öz aktuallığını qoruyur, ədəbiyyatşünasların qarşısında onun araşdırılıb daha sanballı mənbələrin ortaya qoyulmasını bir tələbə çevirir. Bu mərhələ orta məktəbdən başlasa da, onun geniş miqyasda inkişaf etdirilməsi üçün hər kəs üzərinə düşən məsuliyyəti yüksək səviyyədə yerinə yetirməlidir. "Azərbaycan xalqı aciz deyil, onun qəhrəmanlıqla dolu keçmişi var" söyləyən ulu öndər Heydər Əliyevin bu çağırışı bütün dövrlər üçün öz aktuallığını qorumalıdır: "Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın."

**Mirzəyev Elman**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**mirzayev_or@mail.ru**

## A.Bakıxanovun "Gülüstani-İrəm" əsəri Nizami Gəncəvi irsinin tədqiqində mənbə kimi

Azərbaycanın dahi şairi Nizami Gəncəvi dünya ədəbiyyatında parlaq səhifə açmış nadir şəxsiyyətlərdən biridir. 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məlum sərəncamında Nizami Gəncəvi irsinin əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlanmasına diqqət çəkilərək, aşağıdakı fikirlər yer almışdır: "Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar sözsənəti incilərini də məhz burada ərsəyə gətirmişdir".

XIX əsrdə zəngin tarixi mənbələr əsasında yazılmış A.Bakıxanovun "Gülüstani-İrəm" adlı tarixi əsəri Nizami Gəncəvi irsinin tədqiqi sahəsində mühüm mənbələrdən hesab oluna bilər. Müəllif əsərdə Nizamini mənəviyyatın mütəfəkkiri, filosofu adlandırmaqla, onun haqqında verdiyi məlumatı *"Həkimi-mənəvi Şeyx Nizami Gəncəvi"* başlığı ilə təqdim etmişdir (səh. 235-236). Şairin ləqəb və adına işarə edilərək, *Əbu Məhəmməd Nizaməddin İlyas ibni-Yusif ibni-Müəyyəd* olub, doğulduğu və vəfat etdiyi şəhərin Gəncə olduğu yazılır. A.Bakıxanov Nizaminin şəxsiyyətinə, sənətkarlığına yüksək qiymət verərək yazır: "... onun böyüklüyü və fəzilətlərini söyləməkdən dil acizdir. Sözlərindən şairlik dərəcəsi və rəyi aşkardır. Zərifliyi, söz və söhbətilə məclis bəzəməkdə, ümumun rəyincə onun misli olmamışdır. Bütün şairlər onun ustalığını etiraf etmişlər".

Bu tarixi mənbədə Nizami Gəncəvinin dövrü, həyatı və yaradıcılığı ilə bağlı bir çox maraqlı faktlar da yer almışdır. Məs.: Əsərdə onun Əxi Fərəc Zəncaninin müridlərindən olub, ömrünün axırlarında cəmiyyətdən uzaqlaşmaqla ibadətlə məşğul olunduğundan danışılır. A.Bakıxanov onun hicri 576-cı ildə (1181) Tuğrul ibni-Arslan dövründə vəfat edildiyini göstərir. Hansı ki, müasir mənbələr bu tarix şairin qəbri üzərindəki kitabəyə əsasən 605-ci il (1209) olaraq yazılır.

A.Bakıxanov Nizami Gəncəvi yaradıcılığına diqqət çəkərək, onun ilk gənclik dövründə *Vis* və *Ramin* kitabını Sultan Mahmud Səlcuqi adına nəzm etdiyini göstərir. Müəllif daha sonra yazır: "... Məxzənül əsrar, Həft peykər, Leyli və Məcnun, Xosrov və Şirin və İskəndərnamədən ibarət olan beş mənzum dastanını vəfatından sonra alim adamlar toplayıb, "Xəmsə" adlandırmışlar". Müəllif bu fikrlərinin davamı olaraq, "Xəmsə"dən başqa onun həm də 20.000 beytdən ibarət olan bir divanının olduğundan da bəhs etmişdir.

A.Bakıxanov "Gülüstani-İrəm əsərində bir çox tarixi hadisələrin şərhində də Nizami Gəncəvi əsərlərindən bir mənbə kimi faydalanmışdır. Əsərin "İslam dövlətinin zühurundan ərəb qoşununun gəlməsinə qədər Şirvan və Dağıstan ölkələrində baş verən qədim hadisələr haqqında" adlanan I fəslində müxtəlif tarixi hadisələrin işıqlandırılmasında İsgəndərnamə, Xosrov və Şirin poemalarından istinadlar verilmişdir.

Beləliklə, bütün bu fikirləri ümumiləşdirsək, belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan tarixinin öyrənilməsində ən etibarlı mənbələrdən hesab olunan A.Bakıxanovun "Gülüstani-İrəm" əsəri həm də Nizamişünaslıq üçün qiymətli bir töhfədir.

**Seyfullayeva İlahə**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**Seyfullayeva-i@ mail.ru**

## Nizami yaradıcılığında vətənpərvərlik motivləri

Nizami Gəncəvi Azərbaycan xalqının dünya mədəniyyətinə verdiyi nadir sənət dahisidir. Onun Azərbaycan ədəbiyyatının ən parlaq səhifələrini təşkil edən ölməz yaradıcılığında bəşəriyyəti daima düşündürən humanist ideyalar tərənnüm olunmuşdur. Dahi şair insan xoşbəxtliyi, mənalı ömür, mənəvi ucalıq, azad və qüsursuz cəmiyyət və başqa bu kimi öz həyati əhəmiyyətini heç vaxt itirməyən problemlərin həllinə çalışmışdır.

Nizami yaradıcılığında mühüm yer tutan mövzulardan biri də vətənpərvərlik ideyasının tərənnümüdür. Nizami vətənin keşməkeşli tarixini dərindən bilən, doğma xalqının tarixi taleyi ilə yaxından bağlı olan vətənpərvər sənətkar idi. O, mənəvi zənginlikləri ilə tərbiyələndiyi ana vətənindən əsərlərində böyük qürur hissi ilə danışmış, Azərbaycan xalqının əski kitablarda oxuduğu, xalq sənətkarları və el ağsaqqallarının söhbətlərindən eşitdiyi yüksək keyfiyyətlərini, nəcib adət və ənənələrini məhəbbətlə canlandırmışdır. Şair özü sənət aləmindəki şöhrətini ana vətənin ona verdiyi müqəddəs nemət bilmişdir. O, əsərlərində şeir oğrularından şikayətlənərkən bədii uğurlarını doğma yurdun mənəvi sərvəti kimi qiymətləndirmişdir. Bu baxımdan şairin dünyaya göz açdığı, boya-başa yetdiyi doğma Gəncə ilə bağlı qeydləri xüsusilə səciyyəvidir:

Ancaq söz qulduru şəfəq sökərkən,
Qələmi yonaraq mişkin söyüddən.
Fikrimi qapırlar, könlüm əmindir,
Buxaraya getsə o, Gəncənindir.

Nizami poemalarında canlanan rəngarəng təbiət təsvirlərində də barlı-bərəkətli Azərbaycan torpağının özünəməxsus gözəllikləri əks olunmuşdur. Şair doğma Gəncənin mülayim havasını, şəfalı çəmənlərini, meyvəli-üzümlü bağlarını, sərin çeşmələrini, gur meşələrini, Kəpəz və Göy-göl kimi nadir təbiət incilərinin füsunkar mənzərələrini tərənnüm etmişdir.

Nizami Gəncəni doğma Azərbaycan və ümumiyyətlə, türk mühitindən ayrı götürməmişdir. Onu vətənin qədim və zəngin tarixinin bir parçası kimi sevən şair Dərbənd, Şirvan, Bərdə və başqa Azərbaycan şəhərlərindən də eyni məhəbbətlə söz açmışdır.

Nizami "İskəndərnamə" əsərində də İskəndərin Azərbaycana gəlişi ilə bağlı Azərbaycan ölkəsinin təsvirinə geniş yer verir, Azərbaycandakı atəşgədələri xatırlayır. O, xalqın mənəvi sərvətlərinin toplandığı atəşgədələrin İskəndər tərəfindən yandırılıb yerlə yeksan olunmasını qədim Azərbaycan mədəniyyətinə vurulan ağır zərbə kimi mənalandırır. Yaz-qış çiçəklərlə bəzənən, quş südü belə tapılan bərəkətli Bərdə torpağının gözəlliyini, onun keçmiş iqtisadi və mədəni qüdrətini iftixarla xatırlayan şair yazır:

Bərdə nə gözəldir, necə qəşəngdir.
Yayı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər.

Nizami təkcə vətən torpağının gözəlliklərini təsvir etməklə kifayətlənmir. Şair əsərlərində ana vətənin hər daşına, hər qarışına müqəddəs sevdi hissi aşılayaraq bütün bunları qiymətləndirməyi, fədakarlıqla qorumağı öyrədirdi. Vətən məhəbbəti, yurdsevərlik Nizaminin müsbət qəhrəmanlarının əsas məziyyətləri kimi təqdim olunur. Nizami doğma yurduna bağlı, xalqını düşünən, şəxsi xoşbəxtliyini ümumxalq səadətindən ayrı görməyən maraqlı obrazlar yaratmışdır. Şairin vətənlə bağlı poetik düşüncələrində də doğma yurdun müdafiəsi, vətən yolunda fədakarlıq, yadellilərin təcavüzünə nifrət oyadan maraqlı mülahizələrlə qarşılaşırıq.

Nizami poemalarına ümumi nəzər saldıqda vətənpərvərlik kimi daimi bir mövzunun onun “Xəmsə”yə daxil olan bütün əsərlərində bir neçə yerdə və hər dəfə də orijinal bədii biçimdə öz əksini tapdığını görərik. Xalq işinə sədaqət, qəhrəmanlıq, dönməzlik, fədakarlıq, əzm, iradə Nizaminin vətənpərvər qəhrəmanlarını səciyyələndirən əsas cizgilərdir:

Ümidin qırılsa ürəkdən çalış,
Mərdin qulağını buran olmamış.
Uğurlu zamanda zəfər gözləyən
Düşmən qorxusunu silsin könlündən.



Konfrans materialları Lənkəran Dövlət Universtetinin
mətbəəsində çap olunmuşdur

Yığıma verilmişdir: 18.10.2021
Çapa imzalanmışdır: 04.11.2021
Kağızın formatı: $64 \times 84^{1}/_{8}$
Çap vərəqi: 22 c.v., tiraj: 120
Çap ofset üsulu ilə.

Ünvan: Az 4200, Lənkəran səhəri, General Həzi Aslanov xiyabanı 50
Tel: (+994) 25-25-5-25-21
e-mail: elmi_tezis@lsu.edu.az
www.lsu.edu.az